# Kaspi

ÜÇ ƏSRİN QƏZETİ

25 NOYABR ŞƏNBƏ 2023 | 45 (4146) Qiyməti - 40 qəpik www.kaspi.az

'KASPİ' QƏZETİ 1881-Cİ İLİN YANVARINDAN NƏŞR OLUNUR. QƏZETİN ÇAPI 1999-CU İLDƏ BƏRPA OLUNUB







REGİON DÖVLƏTLƏRİ ƏMƏKDAŞLIQ ÜÇÜN YENİ İMKANLAR AÇIRLAR

# AZƏRBAYCAN AVROPAYA AÇILAN QAPI ROLUNDA

Bu gün Azərbaycan və Mərkəzi Asiya dünya arenasında vahid tarixi-mədəni coğrafi region kimi çıxış edir. SPECA-nın Bakıdakı Zirvə görüşü də bu istiqamətdə növbəti uğurlu addım kimi qiymətləndirilə bilər.

**SPECA LİDERLƏRİ BAKIDA TOPLANDI**

Bakıda, Heydər Əliyev Mərkəzində BMT-nin Mərkəzi Asiya Ölkələrinin İqtisadiyyatları üçün Xüsusi Proqramının - SPECA-nın iştirakçı ölkələrinin dövlət və hökumət başçılarının Zirvə görüşü keçirilib. Sammitdə Proqramın üzvü olan ölkələrin prezidentləri və digər yüksək səviyyəli rəsmiləri iştirak ediblər. Prezident İlham Əliyev Zirvə görüşündə çıxış edib.

**BİR-BİRİNƏ DƏSTƏK VERƏN DOSTLAR**

Prezident İlham Əliyevin xüsusi təşəbbüsü ilə həyata keçirilən siyasət nəticəsində bu gün Azərbaycan və Mərkəzi Asiya dünya arenasında vahid tarixi-mədəni coğrafi region kimi çıxış edir. Bütün əməkdaşlıq formatlarında Azərbaycan və Mərkəzi Asiya ölkələri bir-birilərinin ərazi bütövlüyü və suverenliyini dəstəkləyib.

SƏHİFƏ 2-də

"TAMAŞAÇINI TELEVİZİYAYA CƏLB ETMƏK ÜÇÜN ÇOX ƏZİYYƏT ÇƏKMƏLİ OLURSAN"

# "HƏLƏ DƏ ÖYRƏNMƏYƏ DAVAM EDİRƏM..."



Balakişi Qasımov: "Bizim vaxtımızda informasiyanı əldə etmək üçün evə gəlməli idin. İnsanlar həyat tərzlərini və planlarını televiziyaya görə qururdular. Elə filmlər və seriallar var idi ki, onların nümayişi zamanı küçələrdə adam olmurdu, hamı evdə oturub gözləyirdi. İndi zəmanə fərqlidir. Hər insanın öz televizoru var: smartfon elə televizordur. İstədiyin verilişi və ya filmi "YouTube"dan izləyə bilərsən. Bu da bizim işimizi çətinləşdirir".

SƏHİFƏ 8-9-da

ERMƏNİSTANA UZADILAN YARDIM ƏLİ

# SÜLHÜN AÇARI REGİONDADIR



- Azərbaycan Ermənistanla sülh danışıqlarının düşdüyü dalandan çıxarılması üçün daha bir alternativ təklif verib. Söhbət iki ölkənin hələlik şərti sərhədində ikitərəfli və vasitəçilərsiz görüşə çağırışdan gedir.
- Azərbaycan İrəvana düşdüyü quyudan çıxmaq üçün öz yardım əlini uzadır. İkitərəfli danışıqlarla sülh sazişini imzalamaq, qarşılıqlı münasibətləri inkişaf etdirmək, logistika sistemlərini açmaq və s.

SƏHİFƏ 5-də

## Əhali üçün daha yaxşı olacaq

Sumqayıt şəhərinin, Binəqədi və Abşeron rayonlarının sərhədlərinin müəyyənləşdirilməsi haqqında qanunun qüvvəyə minməsi ilə çoxdandır mövcud olan problemin həlli istiqamətində ilk addım atılıb. Bu gün Bakının Sabunçu, Suraxanı, Xəzər, Qaradağ rayonlarında da analoji problem həllini gözləyir.




SƏHİFƏ 13-də

## Bakı sənaye şəhəri statusunu itirir?

Ölkədə sənaye istehsalının əksər hissəsinin Bakı və Abşeron iqtisadi zonasında cəmləşməsinə baxmayaraq, son illərdə bu göstəricinin tədricən azalması müşahidə edilir.

SƏHİFƏ 11-də

## Abort çıxış yolu deyil, həm də təhlükədir



İlk hamiləliyin abortu bəzən gələcəkdə sonsuzluqla nəticələnə bilər. Bu problem bir neçə abort keçirtmiş qadınlarda da yaranır. Abort zamanı uşaqlığın daxili divarı zədələnir, aşerman sindromu yaranır, qadın hamilə qala bilmir.

SƏHİFƏ 14-də

## İKT SAHƏSİNDƏ İNQİLABİ ADDIM



Ev təsərrüfatlarının yarısından çoxunun genişzolaqlı internetə çıxış imkanı var. RİNN cari ilin sonuna kimi bu rəqəmin 60 faizə çatdırılmasını hədəfləyib. Gələn ilin sonuna qədər Azərbaycanda ən aşağı sürətin 25 Mbit/s olacağı proqnozlaşdırılır.

SƏHİFƏ 10-da

## YAŞARI UNUTMAQ MÜMKÜN DEYİL



22 noyabr Xalq artisti Yaşar Nurinin xatirə günü idi. Unudulmaz aktyor xoş xatirələrlə anılır. Dostları, sənət yoldaşları onu əvəzolunmaz sənətkar, sədaqətli dost, qayğıkeş tərəf müqabili kimi xatırlayırlar.

SƏHİFƏ 15-də

## "KƏNDLİ OĞLANLAR"IN BÖYÜK UĞURU



"Təchizat problemi yaşadığımıza görə, yarışa qatılmaq üçün əvvəlki layihəmizin hissələrini sökmək məcburiyyətində qaldıq. Yenə də layihənin bəzi hissələri işləmədi. Amma münsiflər bizi anlayışla qarşıladılar..."

SƏHİFƏ 7-də

ÜÇ ƏSRİN QƏZETİ Kaspi



# AZƏRBAYCAN AVROPAYA AÇILAN QAPI ROLUNDA

**Bu gün Azərbaycan və Mərkəzi Asiya dünya arenasında vahid tarixi-mədəni coğrafi region kimi çıxış edir. SPECA-nın Bakıdakı Zirvə görüşü də bu istiqamətdə növbəti uğurlu addım kimi qiymətləndirilə bilər.**





AZAD ƏLİYEV
azad.eliyev@kaspi.az

Bakıda, Heydər Əliyev Mərkəzində BMT-nin Mərkəzi Asiya Ölkələrinin İqtisadiyyatları üçün Xüsusi Proqramının - SPECA-nın iştirakçı ölkələrinin dövlət və hökumət başçılarının Zirvə görüşü keçirilib. Sammitdə Proqramın üzvü olan ölkələrin prezidentləri və digər yüksək səviyyəli rəsmiləri iştirak ediblər. Prezident İlham Əliyev Zirvə görüşündə çıxış edib.

### “BİZİM ÖLKƏLƏRİMİZDƏ SÜLH, SABİTLİK HÖKM SÜRÜR”

Dövlət başçısı bildirib ki, bu il SPECA-nın 25-ci ildönümüdür. Hazırda Azərbaycan SPECA-ya sədrlik edir: “Qarşımızda bir çox problemlər, çağırışlar durmuşdu. Son 25 ildə əsas çağırışlar arxada qalıb, biz dövlət suverenliyimizi möhkəmləndirmiş, beynəlxalq aləmin dəyərli üzvlərinə çevrilmiş və iqtisadi cəhətdən sürətlə inkişaf etmişik. Ölkələrimizi birləşdirən daha bir amil var, o da siyasi sabitlikdir. Sabitlik olmadan heç bir iqtisadi inkişafdan söhbət gedə bilməz. Bu gün dünyanın müxtəlif bölgələrində müharibələr, münaqişələr, qanlı toqquşmalar geniş vüsət alıb. Bizim ölkələrimizdə isə sülh, sabitlik, əmin-amanlıq hökm sürür, inkişaf, quruculuq prosesləri uğurla gedir. Bu, dövlətlərimizin və xalqlarımızın böyük nailiyyəti və uğurudur”.

### “ONLARIN TALEYİ XARİCİ SPONSORLARIN ƏLİNDƏDİR”

Dövlət başçısı deyib ki, dünyada uğursuz, asılı, iki və ya daha çox stulda oturmaq istəyən, bir neçə ağaya xidmət edən, özünü daha böyük dövlətlərin qarşıdurma arenasına çevirən ölkələrin sayı az deyil. Onlardan biri Azərbaycanın qonşusu Ermənistandır. Belə ölkələrə, sözün əsl mənasında, müstəqil ölkə demək olmaz. Belə ölkələrin siyasəti xalqlarının iradəsinə əsaslanmır, onların taleyi xarici sponsorların əlindədir: “SPECA-ya üzv dövlətlər isə əsl müstəqil ölkələrdir, çünki müstəqil xarici və daxili siyasət aparırlar. Bu günlərdə BMT Baş Assambleyasında SPECA-nın 25 illiyi ilə əlaqədar qəbul edilmiş qətnaməni alqışlayırıq. BMT-nin himayəsi altında SPECA Etimad Fondu təsis edilmişdir. Azərbaycan Etimad Fonduna 3,5 milyon ABŞ dolları ayıracaq”.

### ƏMƏKDAŞLIQ ÜÇÜN YENİ İMKANLAR

Zirvə görüşündə çıxış edən Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev bildirib ki, SPECA-ya üzv dövlətlər arasında investisiya əməkdaşlığını stimullaşdırmaq üçün alətlərin yaradılmasına xüsusi diqqət yetirmək lazımdır.

Körfəz Əməkdaşlıq Şurasının Baş katibi Casim Məhəmməd əl-Budeyvinin sözlərinə görə isə, Körfəz ölkələri Azərbaycan və Mərkəzi Asiya ölkələri ilə əməkdaşlığı genişləndirməyə hazırdır.

Macarıstanın Baş naziri Viktor Orbanın sözlərinə görə, ölkəsi Azərbaycan və Mərkəzi Asiya dövlətləri ilə qardaşlıq əlaqələri qurur.

Gürcüstanın Baş naziri İrakli Qaribaşvili çıxışı zamanı deyib ki, Azərbaycan Gürcüstanın çox mühüm iqtisadi tərəfdaşıdır. İki ölkə arasında ticarət dövriyyəsi 16% artıb.

Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin sözlərinə görə, Azərbaycanın işğaldan azad edilmiş əraziləri SPECA ölkələri arasında əməkdaşlıq üçün yeni imkanlar yaradır.






## VAHİD TARİXİ-MƏDƏNİ COĞRAFİ REGİON

Bu gün Azərbaycan Mərkəzi Asiya ölkələri ilə əməkdaşlığa xüsusi önəm verir. Bu əməkdaşlıq xarici siyasətimizin əsas prioritet istiqamətlərindəndir. Prezident İlham Əliyevin xüsusi təşəbbüsü və fəallığı ilə həyata keçirilən siyasət nəticəsində bu gün Azərbaycan və Mərkəzi Asiya dünya arenasında vahid tarixi-mədəni coğrafi region kimi çıxış edir. İstər ikitərəfli, istərsə də çoxtərəfli əməkdaşlıq formatlarında Azərbaycan və Mərkəzi Asiya ölkələri bir-birilərinin müstəqilliklərini, ərazi bütövlüyü və suverenliyini dəstəkləyib. Statistikaya nəzər salsaq görərik ki, son iki ildə Prezident İlham Əliyev Mərkəzi Asiya dövlətlərinə 10-dan çox səfər edib. Qarşılıqlı səfərlərin fəal dinamikası davam edir. Ötən il Azərbaycanın Mərkəzi Asiya ölkələri ilə ticarət dövriyyəsi üç dəfədən çox, bu ilin yeddi ayı ərzində isə daha 50 faiz artıb.

## UĞURLU FƏALİYYƏTİN TƏMİN OLUNMASINDA AZƏRBAYCANIN ROLU

Mərkəzi Asiya dövlətlərinin Azərbaycana artan marağını şərtləndirən digər bir amil ölkəmizin geosiyasi və coğrafi mövqeyi, sahib olduğu logistika imkanlarıdır. Azərbaycansız bu region ölkələrinin Avropaya çıxışı demək olar sıfıra bərabərdir. Azərbaycanın Şərq-Qərb, Şimal-Cənub qovşaqlarının kəsişməsində yerləşməsi, həmçinin indiki gərgin beynəlxalq münasibətlər fonunda hamının böyük maraq göstərdiyi Orta Dəhlizin əsas açar dövlətlərindən biri olması ölkəmizin geosiyasi və geoiqtisadi əhəmiyyətini daha da artırır. Çindən Avropaya daşınan yüklərin orta hesabla 20-25 günə çatdırılmasını təmin edən Transxəzər Beynəlxalq Nəqliyyat Dəhlizinin uğurlu fəaliyyətinin təmin olunmasında da Azərbaycanın müstəsna rolu var. Sahib olduğumuz imkanlar Mərkəzi Asiya ölkələrinin də istifadəsi üçün təqdim edilir. Onlara bu imkanlardan yararlanmaq, dünya bazarlarına çıxış üçün əlavə geniş şərait yaradılır. Bu imkanlar hesabına SPECA proqramına daxil olan dövlətlərlə qarşılıqlı ticarət dövriyyəsi də müntəzəm olaraq artır. Statistik məlumatlara əsasən, Azərbaycanın Qazaxıstanla ticarət dövriyyəsi illik müqayisədə 32 faiz, Türkmənistanla 3,6 dəfə, Qırğızıstanla isə 4,8 dəfə artıb.

Bu gün Azərbaycan Prezident İlham Əliyevin uzaqgörən və düşünülmüş siyasəti nəticəsində çoxsaylı beynəlxalq tədbirlərə ev sahibliyi etməklə, həyata keçirtdiyi layihələrlə, təşəbbüslərlə beynəlxalq proseslərə istiqamət verən, öz sözünü deyən ölkəyə çevrilib.

# “Zənnimcə, bu, həqiqətən TARİXİ HADİSƏDİR”

**Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev ölkəmizin ərazi bütövlüyünün təmin olunması münasibətilə Prezident İlham Əliyevi təbrik edib. İlham Əliyev SPECA-nın iştirakçı ölkələrinin dövlət və hökumət başçıları ilə digər ikitərəfli görüşlər də keçirib.**



Prezident İlham Əliyev BMT-nin Mərkəzi Asiya Ölkələrinin İqtisadiyyatları üçün Xüsusi Proqramının - SPECA-nın iştirakçı ölkələrinin dövlət və hökumət başçıları ilə bir sıra ikitərəfli görüşlər keçirib.

### ZAMANIN HÖKMÜ

Dövlət başçısı qazaxıstanlı həmkarı Kasım-Jomart Tokayevlə görüşdə bildirib ki, biz yaxşı dostlar, qardaşlar, tərəfdaşlarıq: “Həqiqətən də biz, zənnimcə, ölkələrimizin müstəqil inkişafının bütün tarixində qarşılıqlı fəaliyyətimizin ən yüksək səviyyəsinə çatırıq. Bu, çox xoşdur. Birincisi, bu, məntiqi olaraq xalqlarımız arasında münasibətlərin ruhunu və xarakterini əks etdirir və zamanın hökmüdür. Biz bu gün Xəzər regionunda və daha geniş regionda bir çox sahələr üzrə səyləri birləşdirərək çox mühüm energetika və nəqliyyat layihələri həyata keçiririk. Əlbəttə, bunun əsası ondan ibarətdir ki, ölkələrimizin iqtisadi inkişafı çərçivəsində yaxşı təməl qoyulub”.

## DOST ÖLKƏLƏRİN SEVİNDİYİ QƏLƏBƏ

Prezident Kasım-Jomart Tokayev Prezident İlham Əliyevi təbrik edib: “Fürsətdən istifadə edərək, indi Azərbaycan ərazisində Sizi və bütün qardaş Azərbaycan xalqını əsrin tarixi hadisəsi - beynəlxalq hüquqa və Birləşmiş Millətlər Təşkilatının qətnamələrinə uyğun olaraq ölkənin ərazi bütövlüyünün təmin olunması münasibətilə təbrik etmək istərdim. Bu, Sizin güclü və nüfuzlu rəhbərliyiniz, dövlətçiliyin möhkəmləndirilməsinə yönəlmiş uzaqgörən müdrik siyasətiniz, xalqın rifahının yüksəldilməsi və beynəlxalq aləmdə ölkənizin nüfuzunun artırılması sayəsində mümkün olub. Zənnimcə, bu, həqiqətən tarixi hadisədir və özünü Azərbaycana münasibətdə qardaş, dost hesab edən ölkələrin hamısı buna sevinib”.



### “YENİ NƏTİCƏLƏR GÖZLƏYİRİK”

Prezident İlham Əliyev noyabrın 24-də özbəkistanlı həmkarı Şavkat Mirziyoyevlə də görüşüb. Görüşdə çıxış edən Prezident deyib: “Biz Sizinlə iqtisadi, ticari, sənayenin inkişafı və kooperasiya üzrə çox iddialı plan müəyyən etmişik və hamısı yerinə yetirilir”.

Dövlət başçısı bildirib ki, bu gün biz kooperasiya çərçivəsində, qarşılıqlı investisiyalar çərçivəsində, mahiyyətcə, həmçinin özümüzü təmin etməyə və ixraca istiqamətlənmiş birgə istehsalı yaradırıq: “Bütün istiqamətlər üzrə fəal iş gedir. İli ikitərəfli münasibətlərin yaxşı nəticələri ilə başa vururuq, əlbəttə ki, növbəti ildən də yeni nəticələr gözləyirik”.

## VAHİD GEOSİYASİ, İQTİSADİ VƏ SİYASİ MƏKAN

Prezident İlham Əliyev Körfəz Əməkdaşlıq Şurasının Baş katibi Casim Məhəmməd əl-Budeyvi ilə görüşdə isə, respublikamızda və Mərkəzi Asiya ölkələrində siyasi sabitliyin tam təmin olunduğunu, ölkələrimizin siyasi, iqtisadi, demoqrafik amillər baxımından sürətlə inkişaf etdiyini vurğulayıb.

Dövlət başçısı ölkəmizin Mərkəzi Asiya regionu ilə inteqrasiyası prosesinin dinamik getdiyini, Azərbaycanın və Mərkəzi Asiya ölkələrinin vahid geosiyasi, iqtisadi və siyasi məkan, Xəzər dənizinin bizi birləşdirən dəyər olduğunu diqqətə çatdırıb. Görüşdə hazırda dünyada islamofobiya meyillərinin artması və ona qarşı mübarizənin aparılması məsələləri də müzakirə edilib.

### “BİZ BİR-BİRİMİZİ HƏMİŞƏ DƏSTƏKLƏYƏCƏYİK”

Prezident İlham Əliyev Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmon ilə də görüşüb. Dövlət başçısı bildirib ki, münasibətlərimiz çox uğurla inkişaf edir: “Çoxlu planlar, layihələr var. Ən əsası isə xalqlarımızın qardaşlığıdır”.

Dövlət başçısının Qırğız Respublikasının Prezidenti Sadır Japarov ilə görüşündə də qarşılıqlı maraq kəsb edən məsələlər müzakirə edilib. Prezident İlham Əliyev bildirib ki, münasibətlərimizin dinamikası ölkələrimizin və xalqlarımızın bir-birinə necə yaxın olduqlarını əyani şəkildə göstərir: “Biz bir-birimizi həmişə dəstəkləyəcəyik və gələcəkdə beynəlxalq strukturlarda da bunu edəcəyik”.

Prezident Sadır Japarov isə deyib ki, Qırğızıstan özünün strateji tərəfdaşı olan Azərbaycanla dostluq münasibətlərinə və qarşılıqlı dəstəyə dəyər verir.

# SOCAR Rumıniyada bitum terminalının tikintisində iştirak edə bilər



Azərbaycan Dövlət Neft Şirkətinin (SOCAR) Rumıniyadakı törəməsi olan “SOCAR Petroleum SA” bu ölkədə bitum terminalının tikintisində maraqlıdır. “Report” xəbər verir ki, bu barədə Buxarest Fond Birjası “Konstansa” neft terminalına istinadən məlumat yayıb.

Bildirilir ki, Rumıniyanın Konstansa limanında əsas payı dövlətə məxsus olan neft terminalı ilə birgə bitum terminalı tikməkdə maraqlı olan şirkətlərin siyahısını dərc edib.

Daha iki şirkət bitum terminalının tikintisi üçün tərəfdaşlıq yaratmaq niyyətlərini bildiriblər. Neft terminalı “SOCAR Petroleum SA”nın neft bitumunun tikintisi ilə bağlı təqdim etdiyi şərtləri qəbul etdiyini təsdiqləyib. Hazırda siyahıda SOCAR da daxil olmaqla yeddi şirkət var.

Müsabiqədə iştirak edən digər şirkətlər Konstantin Limanının nəzarətində olan Moldovanın “Takida Terminal” şirkəti, xam neft treyderi “Euronova Energies”, “Frial SA”, “OMV Petrom”, əmtəə treyderi olan “Trafigura” və “Vitaro Energy SRL” şirkətləridir.

“Konstansa” neft terminalının rəhbərliyi bu şirkətlərin hər biri ilə görüşlər keçirəcək və təkliflər ümumi yığıncaqda müzakirə olunacaq.

Açıqlamada bildirilir ki, neft terminalı 2023-2027-ci illər üzrə İnkişaf Strategiyası və İdarəetmə Planına uyğun olaraq, bitum terminalının tikintisi ilə bağlı layihə hazırlamaq istəyir: “Neft terminalının belə inkişaf layihələrinin həyata keçirilməsi üçün öz mənbələri olmadığından tərəfdaşlıq əlaqələrinin qurulmasında maraqlıdır”.

ÜÇ ƏSRİN QƏZETİ Kaspi






# RUSİYANIN ERMƏNİSTANDAKI İQTİSADİ RIÇAQLARI

Kremlə qarşı soyuq münasibət və addımlar Ermənistan iqtisadiyyatını məhvə sürükləyə bilər. Moskva hələlik susur və cəza tədbirlərinə əl atmır. Amma istənilən an rıçaqlarından istifadə edərək, Paşinyan hökumətini ciddi şəkildə cəzalandıra bilər.

F.ABASOĞLU

Ermənistan hökuməti son dövrlər Rusiya ilə ipləri tam qoparmaq niyyətini açıq-aşkar dilə gətirir. Müxalif düşərgə iddia edir ki, Rusiya ilə münasibətlərdən qopmaq Ermənistan iqtisadiyyatının çöküşü deməkdir. Çünki Ermənistan iqtisadiyyatının şah damarları və əsas qolları Rusiyanın əlindədir. Rusiya isə bu rıçaqlardan istədiyi vaxt Ermənistan əleyhinə istifadə edə bilər. Bəs reallıq necədir? Faktlara diqqət yetirək.

### ELEKTRİK ENERJİSİ RUSİYANIN NƏZARƏTİNDƏ

Ermənistanın əsas enerji istehsalçısı olan Razdan İES-lə yanaşı, Sevan-Razdan kaskadının 8 SES-i də rus şirkətinin balansındadır. Bundan əlavə, Ermənistanın elektrik şəbəkəsində Rusiyanın "İnter RAO" şirkəti söz sahibidir. Ölkənin enerji sistemində xüsusi yerə sahib Vorotan kaskadının da Rusiyanın əlinə keçəcəyi ehtimal edilir.

Bu səbəbdən, 2015-ci ildən sözügedən şirkəti amerikalılara satmaq üçün hərəkətə keçilib. Bununla da erməni hökuməti enerji strategiyasında rəqabət yaratmaq, dəyişiklik etmək istəyib. Amma Kreml rıçaqlarını işə salaraq tariflərdə cüzi dəyişiklik edərək, Ermənistanda ciddi böhrana səbəb olub. İrəvan küçələri etirazçılarla aşıb-daşıb.

### DƏMİR YOLLARININ SAHİBİ RUSİYADIR

Bu yaxınlarda Nikol Paşinyan Üçtərəfli Bəyanatın 9-cu bəndinin ləğvi ilə bağlı açıqlama verməkdi. Sözügedən bəndə əsasən, Azərbaycanın qalan əraziləri ilə Naxçıvan arasında nəqliyyat kommunikasiyalarına Ermənistan ərazisində Rusiya Federal Təhlükəsizlik Xidməti nəzarət etməlidir. Söhbət təbii ki, dəmir yolları şəbəkəsindən gedir və Paşinyan bu yola nəzarət üçün xüsusi qrupun yaradıldığını bildirib. Amma erməni baş nazirin unutduğu məqam ondan ibarətdir ki, Ermənistanın dəmir yolu şəbəkəsi olan "Cənubi-Qafqaz dəmir yolu" 2008-ci ildən Rusiyanın "RDY" Açıq Səhmdar Cəmiyyətinə məxsusdur. Müqavilə 30 il müddətinə imzalanıb.

### QAZ SƏNAYESİ

İrəvanın enerji bazarının 60%-i təbii qazdan asılıdır və bu işi "Ermənistan Qazprom" həyata keçirir. Şirkət 1997-ci ildə qurulub və səhmlərinin 45 faizi Rusiyaya, 45 faizi Ermənistana, 10 faizi isə "İtera" şirkətinə ("Rosneft"in törəmə şirkəti) məxsus idi. 2013-cü ildən isə Ermənistan qaz sənayesi tam olaraq Rusiyanın əlində cəmləşib. Göründüyü kimi, ciddi iqtisadi rıçaqdır və Kreml tariflərə cüzi dəyişiklik edərək Ermənistanı iflic vəziyyətinə sala bilər. Ermənistan isə vurnuxaraq alternativlər axtarır və İrana boylanır. İran qazı isə müqayisədə bahadır və şübhəsiz ki, iqtisadiyyat nazirinin müavini Akop Vardanyanın Azərbaycandan qaz idxal etməyə hazır olduqları barədə açıqlaması bu alternativ axtarışının bir qoludur.




## ERMƏNİSTANIN YERALTI SƏRVƏTLƏRİNİN DƏ SAHİBİ VAR

Texut mədəni ermənilərin postsovet məkanında ən böyük mis-molibden mədəni sayılır. Bu mədəndə 11 növ metal, xüsusən də qızıl yataqları var. Dəyəri isə 30 milyard dollar qiymətləndirilib. Hökumət mədənin işlənmə hüququnu 30 illik müddətə Kremlin "Valeks Qrup" şirkətinə verib. İrəvanın bu müqavilədən gəliri 600 milyon dollardır. Bu isə ümumi dəyərin beş faizi deməkdir.

Rusiya Ermənistanı maye yanacaqla təmin edən əsas ölkədir və bu işdə kvotalar tətbiq edib. Kvotalar bitəndə Ermənistan hökuməti yalvar-yaxarla onu artırır. Son dövrlər Ermənistanda benzinin qiymətində artımlar müşahidə edilir. Ötən il ilə müqayisədə real artım 50 faizdir. Yanacaq qiymətinin artımı iqtisadiyyata ciddi təsir edir və ümumi inflyasiyanı sürətləndirir.

### SƏRMAYƏLƏRİN ƏSAS PAYÇISI

Ermənistana qoyulan sərmayələrin 40%-i Rusiyaya məxsusdur. Qərb şirkətləri son illər müxtəlif sahələrə qoyulan sərmayələri rentabelli saymadıqları üçün azaldırlar. Kreml isə boşalan sahələri dərhal doldurmaq üçün fəaliyyətə keçir. Məsələn, mədənçıxarma sektorunda alman və Niderland mənşəli kapitalda azalma qeydə alınıb və bu yeri rus kapitalı doldurub. 2022-ci ilin yanvar-sentyabr aylarında da Ermənistanda kapital sahəsində liderlik Rusiyaya məxsus olub və 59.8 milyard dram təşkil edib. Sərmayənin əsas hissəsi dağ-mədən sənayesinə, digər hissəsi isə elektrik və qaz sənayesinə yönləndirilib.

## XARİCİ TİCARƏTİN SAHİBLƏRİ

Ermənistanın xarici ticarətinin əsas tərəfdaşları MDB ölkələridir və şübhəsiz ki, bu siyahıda da lider Rusiyadır. Cari ilin yanvar-iyun aylarında bu iki ölkə arasında ticarət dövriyyəsi üç milyard dollardan çox olub. İxrac məsələsində də əsas tərəfdaş Rusiyadır. Sözügedən dövr ərzində Ermənistan Rusiyaya bir milyard 677 milyon dollarlıq mal satıb. Rəqəmlər ötən ilin analoji dövrü ilə müqayisədə üç dəfə çoxdur. Avropa İttifaqına isə cari ilin yanvar-iyun aylarında ixrac rəqəmləri ötən il ilə müqayisədə 11.7% azalma göstərir. Ümumi ixrac cəmi 376 milyon dollardır.

### RIÇAQLARIN İŞƏ SALINMASI

Sadalanan faktlardan məlum olduğu kimi, Ermənistan iqtisadiyyatının əsl sahibi Rusiyadır. Kreml istədiyi zaman rıçaqlarını işə salaraq, Ermənistanın iqtisadiyyatını iflic vəziyyətinə sala bilər. Məsələn, 2013-cü ildə İrəvan Avropa ilə gömrük və iqtisadi sahədə müqavilələr imzalamaq üçün danışıqlar aparırdı. Yay aylarında Kreml təbii qazın qiymətini 180 dollardan 270 dollara artırmaqla erməni hökumətinə mesajını ötürdü.

Kremlə qarşı soyuq münasibət və addımlar Ermənistan iqtisadiyyatını məhvə sürükləyə bilər. Moskva hələlik susur və cəza tədbirlərinə əl atmır. Amma istənilən an rıçaqlarından istifadə edərək, Paşinyan hökumətini ciddi şəkildə cəzalandıra bilər...

# SÜLHÜN AÇARI REGİONDADIR




Beynəlxalq təcrübə də göstərir ki, uzunmüddətli münaqişələrdə üçüncü tərəfin vasitəçiliyi ilə əldə edilən razılaşmalar hər zaman kövrək və etibarsız olur. Əksinə, iki münaqişə tərəfinin öz aralarında əldə etdiyi razılaşma daha yaxşı effekt verir.



AZAD ƏLİYEV
azad.eliyev@kaspi.az

Bir neçə gün əvvəl Azərbaycan Ermənistanla sülh danışıqlarının düşdüyü dalandan çıxarılması üçün daha bir alternativ təklif verib. Söhbət iki ölkənin hələlik şərti sərhədində ikitərəfli və vasitəçilərsiz görüşə çağırışdan gedir.

### MÖVCUD VƏZİYYƏT

Artıq uzun müddətdir ki, İrəvan və Bakı qarşılıqlı olaraq sülh danışıqları ilə bağlı təklif olunan görüşlərdən imtina edirlər. Ermənistan Rusiyanın, Bakı isə Qərbin vasitəçiliyi ilə təşkil olunan görüşlərə "yox" deyib.

Azərbaycanın arqumentləri haqlı və ədalətlidir. Görüş təklif edən tərəflər vasitəçilik və ya moderatorluq funksiyasını üzərilərinə götürdükləri üçün bitərəf olmalı, ən azı tərəflərə bərabər məsafədə dayanmalıdırlar. Lakin Azərbaycanı Qərb paytaxtlarında görüşə dəvət edənlərin timsalında biz bunun tamamilə əksini görürük. Sülh sazişinin imzalanmasının çox yaxın olduğuna dair verilən bəyanatlar fonunda Fransa bu prosesi əngəlləyir, hətta nümayişkaranə surətdə Ermənistanı silahlandırır. Azərbaycana qarşı "907-ci düzəliş"in yenidən qüvvəyə minməsini nəzərdə tutan qərarın qəbulu da bir zamanlar böyük ümidlərin bəslənildiyi Vaşinqtonun əsl niyyətinin nə olduğunu açıq şəkildə ortaya qoyur.

## İRƏVANIN ÖZÜNDƏ DƏ ANLAYIRLAR Kİ...

Ermənistana gəldikdə, İrəvan bəyan edir ki, Azərbaycanla yekun sülh danışıqlarında üçüncü tərəfin iştirakında israrlıdır. Təbii ki, 30 illik "təcrübə" İrəvanın bu bəyanatının heç də Ermənistanda yox, onu özlərinin oyuncağına çevirən mərkəzlərdə hazırlanan tezis olduğuna dəlalət edir. Ermənistanın özündə də anlayırlar ki, hakimiyyətdə kimin olmasından asılı olmayaraq, müstəqil dövlət siyasətləri yoxdur. Ermənistan hazırda müstəqil dövlət olmaq üçün bütün zəruri imkanlardan məhrumdur. Dayanıqlı iqtisadiyyat, xarici sərmayə, beynəlxalq logistika hablarına çıxış, qonşuları ilə normal münasibətlər, güclü ordu, sərbəst maliyyə və investisiya imkanları... Ermənistan bütün bunlardan məhrumdur. Səbəb 2020-ci ilə kimi 30 illik işğal faktı idisə, son üç ildə aldığı ağır məğlubiyyətə və yeni geosiyasi reallıqlara baxmayaraq, hələ də Azərbaycanla yekun sülh sazişinin imzalanmamasıdır.

### ERMƏNİSTANA VƏD EDİLƏN "GÖZƏL GƏLƏCƏK"

Rəsmi Bakı mütəmadi olaraq İrəvanı doğru yola dəvət edir. Hətta ən ali səviyyədə açıq şəkildə xəbərdarlıq edilir ki, heç kim onların əvəzinə Azərbaycanla müharibə etməyəcək.



Bu illüziya Ermənistanı daha da məhvə doğru sürükləyir. Müstəqil Ermənistan dövlətinin mövcudluğu nə ABŞ, nə də Fransanı maraqlandırır. Bu dövlətlərə bölgədəki maraqlarını təmin etmək üçün əmrlərini sözsüz yerinə yetirən, onlardan daima asılı olan, vassal, zəif Ermənistan gərəkdir. Bu mərkəzlər özləri də anlayırlar ki, Ermənistanın sürətli inkişafı və sivil dövlətə çevrilməsinin yeganə yolu Azərbaycan və Türkiyə ilə əməkdaşlığın qurulmasından, tezliklə sülh sazişinin imzalanmasından keçir. Real siyasətdə Türkiyə NATO-nun ən güclü dayaqlarından biri, Azərbaycan isə Qərbin enerji təminatında və logistika sistemində mühüm strateji əhəmiyyətə malik vacib tərəfdaşı statusundadır. Bu amillər qarşısında Ermənistanın Qərbə vəd edə biləcəyi yeganə vasitə onların maraqlarını həyata keçirtmək üçün əllərində oyuncaq bir dövlət olmaqdır. İrəvan unudur ki, strateji maraqlar uzunmüddətli, geosiyasi maraqlar qısamüddətlidir. İrəvana vəd edilən "gözəl gələcək" çox qısa zamanda puç olacaq xəyaldır. Hazırda ağasını dəyişmək üçün acından ölən İrəvanı qarşısına atılan bir neçə yüz milyon dollar və ya avro ilə düşdüyü çuxurdan çıxarmaq mümkün olmayacaq. Əksinə, daha da dibə vuracaq.

## ERMƏNİSTANA UZADILAN YARDIM ƏLİ



Azərbaycan İrəvana düşdüyü quyudan çıxmaq üçün öz yardım əlini uzadır. İkitərəfli danışıqlarla sülh sazişini imzalamaq, qarşılıqlı münasibətləri inkişaf etdirmək, logistika sistemlərini açmaq və s. Müzakirə masasında nə ABŞ, nə Fransa olacaq, nə də Rusiya. Sadəcə iki tərəf - Azərbaycan və Ermənistan. Beynəlxalq təcrübə də göstərir ki, uzunmüddətli münaqişələrdə üçüncü tərəfin vasitəçiliyi ilə əldə edilən razılaşmalar hər zaman kövrək və etibarsız olur. Əksinə, iki münaqişə tərəfinin öz aralarında əldə etdiyi razılaşma daha yaxşı effekt verir. İrəvan bu reallığı nə qədər tez dərk edərsə, onun üçün bir o qədər yaxşı olar. Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevin də vurğuladığı kimi, Ermənistanın təhlükəsizliyi nə Moskva, nə Brüssel, nə Paris, nə də Vaşinqtondadır, bölgədədir.

### İRƏVAN BAKININ TƏLƏBLƏRİ İLƏ RAZILAŞMAQ MƏCBURİYYƏTİNDƏDİR

Ermənistanın Qərbin Azərbaycana qarşı sanksiyalar tətbiq edəcəyi ilə bağlı xəyalları da artıq puç olub. Son üç ilin təcrübəsi göstərir ki, Azərbaycanla heç kim təzyiq dili ilə danışa bilməz. Bakı İrəvandan fərqli olaraq, hansısa mərkəzlərin qarşısında boyun əymir. Əksinə, milli maraqlarının təmin edilməsi üçün hər zaman diktə edən tərəfdir. Çünki güclü, müstəqil dövlətdir. Beynəlxalq tərəfdaşlarla münasibətlər də bərabərhüquqluluq prinsipi üzərində qurulur. İrəvanın ən sonda yenə də Bakının tələbləri ilə razılaşmaq məcburiyyətində qalacağı şəksizdir. Artıq Ermənistan tərəfi sərhəddə delimitasiya komissiyasının növbəti toplantısının keçirilməsinə razılıq verib. Ardı gəlməlidir....

BURADA SİZİN REKLAMINIZ OLA BİLƏR
Tel: (+994 55) 457-02-03 / (+994 77) 447-47-17
E-mail: kaspiqazeti@kaspi.az

# ASTANA KREMLDƏN uzaqlaşmağa çalışır



**Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev xarici siyasətdə məharətlə tarazlıq saxlayır, hamını razı salmağa çalışır. Ölkə Qərbin Rusiyaya qarşı sanksiyalarını dəstəkləyir, eyni zamanda paralel idxalı qurmaqla onlardan yan keçməyə çalışır.**



AZƏR NURİYEV

Mərkəzi Asiya regionu əksər dövlətlərin diqqət mərkəzindədir. Regiona yaxın və uzaq xaric ölkələrindən səfərlərin ardı-arası kəsilmir. Bölgə, onun karbohidrogen ehtiyatları uğrunda mübarizə start götürüb. Xarici ölkələrin hədəfləri bəllidir. Nəyin bahasına olursa-olsun Rusiyanı, hətta Çini bölgədən sıxışdırıb çıxarmaq. Rusiya isə əksinə, regionu öz orbitində saxlamağa çalışır. Ukraynada müharibə başladıqdan sonra Moskvaya münasibət bir qədər fərqlənir. Kremlə qarşı tətbiq olunan sanksiyalar Mərkəzi Asiya ölkələrini çətin duruma salıb.

### PUTİNİN QAZAXISTANA QƏFİL SƏFƏRİ MÜZAKİRƏ MÖVZUSUDUR

Bütün bunların fonunda Rusiya Prezidenti Vladimir Putin Qazaxıstana səfər etməklə çoxsaylı müzakirələrə səbəb olub. O, uzun illərdir ki, bu ölkəyə səfər etmirdi. Son vaxtlar çox nadir hallarda xarici ölkələrə gedən Putinin bu səfəri Fransa Prezidenti Emmanuel Makronun Mərkəzi Asiya səfərindən, eləcə də Türk Dövlətləri Təşkilatının, əsasən hərbi əməkdaşlığın müzakirə edildiyi sammitindən bir neçə gün sonra baş tutub. Son illər qazax lideri Qərbə yönəlik uğurlu gedişləri ilə seçilir, Fransa prezidentini qəbul edir, ölkəsinin Rusiyaya qarşı sanksiyaları dəstəkləyəcəyini bəyan edir. Prezident Kasım-Jomart Tokayev açıq şəkildə bəyan edib ki, qondarma Donetsk və Luqansk respublikalarını tanımayacaqlar. Çox güman ki, Putinin qəfil səfəri də bu və digər narahatçılıqlardan irəli gəlir. Səfər zamanı ikitərəfli münasibətlərin pik həddə çatdığı, ölkələr arasında əməkdaşlığa problem yaradacaq heç bir qüvvənin olmadığı xüsusi vurğulansa da, reallıq heç də belə deyil.

Qazaxıstan Qərb dünyası ilə hərtərəfli münasibətləri inkişaf etdirməkdədir. Bu baxımdan hesab etmək olar ki, Rusiya lideri bu səfərində istədiyinə nail ola bilməyib. Bunu sübut edən tək bir fakt - səfərdən az sonra Qazaxıstanda Rusiyanın ən böyük təbliğat vasitələrindən birinin fəaliyyətinə xitam verilib.

### BLOKLANAN RUS KANALLARI

Qazaxıstan hakimiyyəti səfərdən az sonra ölkə ərazisində Rusiyanın "Sputnik24" saytını bloklamaq qərarına gəlib. Bildirilib ki, bloklama yerli hakimiyyət orqanları tərəfindən respublika ərazisində lisenziyasız şərti giriş kartları və avadanlıqlar haqqında məlumatların yayılması ilə əlaqədar həyata keçirilib. Qeyd edilir ki, "Sputnik24" saytı "Rossiya 1", "Rossiya 24", Birinci Kanal, NTV və "Russia Today" kanallarına baxışı təmin edirdi. Bundan əvvəl Qazaxıstanda bir sıra internet resurslarının bloklanması ilə bağlı qərarlar qəbul edilib. Bu sırada Rusiyanın "Tsargrad" telekanalının saytı da olub. Sayt "ekstremizmin təbliğatına" görə bloklanıb. Qazaxıstanın informasiya naziri Darxan Kıdırali Rusiyanın "Tsarqrad" telekanalının saytının informasiya təhlükəsizliyi ilə bağlı bloklandığını bildirib.




## ASTANA BALANSI USTALIQLA QORUYUR

Rus mediasında dərc olunan məqalələrdə vurğulanır ki, Rusiya ilə Qazaxıstan arasında dostluq və etimad dövrü keçmişdə qalıb. Tokayev məharətlə tarazlıq saxlayır, hamını razı salmağa çalışır - Qərbin Rusiyaya qarşı sanksiyalarını dəstəkləyir, eyni zamanda paralel idxalı qurmaqla onlardan yan keçməyə gizli köməklik göstərir. Rusiyayönümlü siyasilərin qənaətincə, indi Tokayev üçün əsas olan Qərbi razı salmaqdır. Rusiya prezidenti ilə keçirilən son görüş də Qazaxıstanın hansı tərəfdə olduğunu açıq şəkildə nümayiş etdirib. Ölkələr arasında münasibətlər indi son dərəcə qeyri-müəyyəndir. Tokayev bu yaxınlarda Rusiya və Ukrayna arasındakı münaqişədən danışıb, lakin bunu çox diqqətlə edib və "bütün ölkələrin ərazi bütövlüyünü" dəstəkləməyin zəruriliyindən danışıb. Bu, Qazaxıstanın Rusiyanın hərəkətlərini pislədiyinə işarədir.

Tokayev açıq-aydın Moskvanın təsirindən çıxmağa çalışır. Ölkədə demək olar ki, bütün məmurlar rus dilində danışsalar da, prezident qazax dilində danışmağa qərar verib.



## MƏRKƏZİ ASİYA NİYƏ ÖNƏMLİDİR?

Rusiya-Ukrayna müharibəsi başlayandan bəri Qazaxıstan ABŞ və Norveçdən sonra Avropanı yanacaqla təmin edən üçüncü ixracatçıya çevrilib. Bundan əlavə, Qazaxıstan dünyanın ən zəngin uran ölkəsidir. Uran Avropanın enerji bazarında xüsusi rol oynayır. ABŞ Prezidenti Co Baydenin bu ilin sentyabrında tarixdə ilk dəfə Mərkəzi Asiya dövlətlərinin liderləri ilə Vaşinqtonda forum təşkil etməsi bu regionun Ağ Ev üçün də xüsusi əhəmiyyət daşıdığını göstərdi. Bayden "C5+1" adı verilən görüşü "illərdir qurulan yaxın əlaqələr üçün tarixi an" adlandırmışdı. Enerji ehtiyacının 60 faizini Atom Elektrik Stansiyaları hesabına təmin edən Fransa üçün Qazaxıstanın əhəmiyyəti həm də bu ölkənin uranla zəngin olması ilə əlaqəlidir. İllərdir ki, Fransa urana olan ehtiyacının böyük hissəsini Qazaxıstanın hesabına ödəyir. "Uranla zəngin olan və Fransanı təmin edən ikinci ölkə Nigerdə baş vermiş hərbi çevrilişdən sonra rəsmi Paris üçün Qazaxıstanın önəmi daha da artıb", - deyə BBC yazır. Fransanın Qazaxıstanla yaxınlaşması fonunda Rusiyaya yönəlik verdiyi mesajları əsas gətirən BBC Kreml rəhbərinin Astana səfərini Avropa İttifaqının Mərkəzi Asiyada nüfuzunun güclənməsindən narahat olması ilə əlaqələndirir.

Görünən odur ki, Qazaxıstan yaxın perspektivdə Rusiyanın xüsusi narahatlıq keçirəcəyi bölgələrdən biri olacaq.



# "KƏNDLİ OĞLANLAR"IN BÖYÜK UĞURU

"Təchizat problemi yaşadığımıza görə, yarışa qatılmaq üçün əvvəlki layihəmizin hissələrini sökmək məcburiyyətində qaldıq. Yenə də layihənin bəzi hissələri işləmədi. Amma münsiflər bizi anlayışla qarşıladılar..."



Fotolar: Rüfət Mikayılov/Global Media Group



ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az

Panamada Dünya Robot Olimpiadası keçirilib. Yarışda beş qitədən 84 ölkənin 450 komandası iştirak edib. Azərbaycandan isə bu yarışa səkkiz komanda qatılıb. Yarışa Gənclər və İdman nazirliyinin dəstəyi ilə qatılan Zaqatala və Balakən məktəblilərindən ibarət komandamız olimpiadada ikinci yeri qazanıb. "Village Boys" ("Kəndli oğlanlar") komandası bu uğuru "Future İnnovators-Junior" kateqoriyası üzrə əldə edib. "Village Boys" komandasının üzvləri - Zaqatala rayon Zərifə Əliyeva adına Texniki fənlər təmayüllü liseyinin şagirdi Hacı Hacıyev, Zaqatala rayon Əliabad qəsəbəsi dörd saylı məktəbin şagirdi Əlibali Əlibəyov, Balakən rayonu Zərifə Əliyeva adına liseyin şagirdi Nihat Muradlıdır. Xatırladaq ki, Hacı Hacıyev Vətən müharibəsi şəhidi, polkovnik-leytenant Abakar Hacıyevin övladıdır.

### BELƏ AD OLMASAYDI, HAQQIMIZDA BU QƏDƏR DANIŞILMAZDI

Komandanın adı da diqqət çəkir - "Kəndli oğlanlar". Bu adın tarixçəsini Əlibali danışır. Deyir, bu ad onlara özünəməxsusluq qatıb: "Azərbaycanda birinci yeri tutduqda komandamızın adı "Mekatron mühəndislər" idi. Amma Rəhman müəllimin belə bir fikri var idi ki, orada bütün komandaların adları eyni olacaq. Həqiqətən gördük ki, bütün komandaların adları "robo" və "texno" ilə başlayırdı. Amma "Village Boys" daha çox səmimiyyət yaradırdı. Çünki fərqli idi. Bəlkə də belə ad olmasaydı, bu qədər marağa səbəb olmazdıq".

### TƏCHİZAT VƏ MALİYYƏ PROBLEMLƏRİNƏ QALİB GƏLƏN KOMANDA

Hacının sözlərinə görə, yarışa qədər onlar üçün əsas problem təchizat və dillə bağlı olub: "Respublika turuna özümüz hazırlaşmışdıq. Amma dünya turuna çıxanda artıq təchizat daha da çox olmalı idi ki, modelimizi təkmilləşdirə bilək. Çətin olsa da, öhdəsindən gəldik. Başqa bir çətinliyimiz isə dillə bağlı idi. Dünya turunda ən vacib ikinci amil təqdimatdır. Onu da ingilis dilində etmək lazım idi. Bu səbəbdən 2-3 ay ancaq ingilis dilini öyrəndik".



Əlibali isə bildirir ki, layihələrinə yaxşı maliyyə ayrılsaydı, daha da yaxşı işlər ortaya qoya bilərdilər: "Təchizat baxımından çətinliklər çəkdiyimiz üçün əvvəlki ixtiramızın təkərlərini sökmüşdük. Yarışda elə layihələr var idi ki, dəyəri minlərlə dollar idi. Bizə də o cür dəstək olsaydı, daha keyfiyyətli layihəmiz ola bilərdi. Əsas üstünlüyümüz o oldu ki, bizim layihəmiz az maliyyə tələb edirdi. Ona görə özümüz maliyyələşdirə bildik. Təqdimat zamanı bəzi çətinliklər yaşadıq. Layihəmizin bəzi hissələri işləmədi, çünki onu yığa biləcək təchizatımız yox idi. Nə yaxşı ki, münsiflər bunu anlayışla qarşıladılar və güzəşt etdilər".

## "YARIŞDA İDEYA ÇOX ÖNƏMLİDİR"

Layihələri çətinliklə ərsəyə gəlsə də, mövzusu qeyri-adi olub. Yarışa təqdim etdikləri "Robocean" layihəsi dənizlərin və okeanların çirklənməsi, həmçinin onların təmizlənməsi ilə bağlı olub. Maraqlıdır ki, şagirdlərin yaşadıqları rayonlarda su hövzəsi mövcud deyil. Bəs bu ideya onlarda haradandır?

Əlibali deyir ki, qaydalara əsasən, hər il yarış hansı ölkədə keçirilirsə, ideya onun problemlərini həll etmək üzrə olmalıdır: "Panamanın da ən böyük problemləri okeanların və dənizlərin çirklənməsi, sualtı internet kabellərinin zədələnməsi və yükdaşıma ilə bağlı idi. Layihəmizin əsas məqsədi çirklənmiş ərazilərin təmizlənməsini sürətləndirməkdir".

Hacı qeyd edir ki, layihə mövzusunun tapılması üçün çox əziyyət çəkiblər: "Hər il yanvar ayından mövzular açıqlanır. Yarışda ideya vacib şərtdir deyə, ilk 2-3 ayımızı onu tapmağa sərf etdik. İdeyanı tapandan sonra hazırlaşmağa başladıq. Bütövlükdə 6-7 aya başa gəldi. Gəmilər arasında təchizat, xəbərləşmə problemi var idi. Okean və ya dənizlərdə tullantıların olub-olmadığını müəyyənləşdirə bilsələr də, onu təmizləyə bilmirdilər. İndi isə bizim sayt vasitəsilə gəmilər bir-biri ilə əlaqə yaradacaqlar".



## KOMANDAMIZIN RƏQİBLƏRİNİN DƏ İŞTİRAKÇILARDA MARAQ OYADAN LAYİHƏLƏRİ OLUB

Komanda üzvləri bizimlə söhbətdə rəqiblərini də unutmadılar. Hacının yarışda ən çox bəyəndiyi Yaponiya, Malayziya və Almaniyanın layihələri olub. Onun sözlərinə görə, Yaponiya ilə Malayziyanın layihələri leqolardan (konstruksiya) yığılıb: "Görünüşləri demək olar ki, eyni idi, sadəcə funksiyaları fərqlənirdi. Amma ən yaxşısı Almaniyanın layihəsi idi. Elə birinci yerin də qalibi onlar oldular. Layihə suyun altında olan problemləri həll etməyi, kabelləri düzəltməyi nəzərdə tuturdu".



Nihatın da ən çox bəyəndiyi Yaponiyanın layihəsi olub: "İdeyası xoşuma gəldi. Onların yığdıqları sistem avtomatik olaraq kabellərdəki zədəni aşkarlayır və zədələnmiş hissəni bərpa edir".

### "KOLLEKSİYAMA YENİ ƏSGİNASLAR ƏLAVƏ OLUNDU"

Hacının sözlərinə görə, bəzi komandalar ölkələrinin adət-ənənələrindən də istifadə ediblər: "Mən ölkələrin valyutalarını toplayıram. Yarışda iştirak edən ölkələrin valyutalarından da kolleksiyama əlavə etdiklərim oldu".

Nihat üçün isə yarışdan ən yaddaqalan hissə komandanın adının səslənməsi olub.

Əlibali komanda yoldaşının sözlərini dəstəkləyərək bildirir: "Ölkəmizin adının hallanması qürurverici idi. Özü də məhz 9 noyabr Bayraq Günündə qalib olmağımızı heç vaxt unutmayacağam. Çünki 85 ölkə içərisində Azərbaycanın adının hallanması, bayrağımızı dünya arenasında qaldıra bilməyimiz bizim üçün həqiqətən də çox xoş idi".

"Yenidən birincilik üçün yarışa qatılacaqsınızmı?"sualına gəldikdə Əlibali deyir ki, gələcək illərdə də yarışlara qatılmağa çalışacaqlar: "Yarışlara qatılmaqda komandamız üçün əsas məqsəd təcrübə qazanmaq, yeniliklər öyrənmək və özümüzü təkmilləşdirməkdir".

Əlibali, Hacı və Nihat gələcəkdə robotexnika üzrə təhsil alıb, Azərbaycana qayıtmaq, hazırladıqları layihələrin reallaşması üçün çalışmaq istəyirlər.

İTV-NİN BAŞ DİREKTORU: “TAMAŞAÇINI TELEVİZİYAYA CƏLB ETMƏK ÜÇÜN ÇOX ƏZİYYƏT ÇƏKMƏLİ OLURSAN”

# “HƏLƏ DƏ ÖYRƏNMƏYƏ DAVAM EDİRƏM...”



HAZIRLADI



Təranə Məhərrəmova
taranamaharramova@kaspi.az

**Balakişi Qasımov:** “Bu günün göstəricilərinə görə, televiziyaya daha çox 45-50+ yaşlı insanlar, təqaüdçülər baxırlar. Onların daha çox vaxtı olur və izləyə bilirlər. Biz çalışırıq ki, gənclərə də maraqlı olacaq verilişlər istehsal edək”

“Məktəbdə qonaq olmaq çox xoşdur. Bu gün mən keçmişə qayıtdım. Bütün uşaqlığım yadıma düşdü...” İctimai Televiziya və Radio Yayımları Şirkətinin baş direktoru Balakişi Qasımov Bakı Şəhəri üzrə Təhsil İdarəsinin “Kaspi“ qəzeti ilə birgə həyata keçirdiyi “Məktəbdə” layihəsində qonaq olarkən sevincini bu sözlərlə ifadə etdi.

Namiq Axundov adına 1 nömrəli tam orta məktəbdə reallaşan görüş vaxtilə bu təhsil ocağında təhsil alan İTV rəhbərinə xeyli nostalji hisslər yaşatdı. Məktəb binasına daxil olarkən öncə partası arxasında oturduğu ilk sinif otağına baş çəkdi.

Zalda gəlişini gözləyən məktəblilərin alqışlarına minnətdarlıq edərək: “Mən burada müəllim deyiləm. İctimai Televiziyada mənə “Balakişi müəllim” demirlər, mənə sadəcə “Balaş” deyə müraciət edə bilərsiniz...” - deyə auditoriya ilə səmimi ortam yaratmağa çalışdı.

B.Qasımov görüşə uşaqlıq xatirələrini vərəqləməklə başladı: “1985-ci ildə valideynlərim məni 1-ci sinfə gətirəndə çox sevincli idim. Hava soyuq olsa da günəşli gün kimi yadımda qalıb. İlk müəllimim Valentina Aleksandrovnanı xatırladım. Məktəbin geniş pillələnləri vardı. Biz oxuyanda yalnız rus məktəbi idi, indi Azərbaycan bölməsi də var. O vaxt Konservatoriyadan gəlib şagirdlər arasından uşaq xorunda oxumaq üçün seçirdilər. “Mənim vətənim” mahnısını oxumaq lazım idi. Amma məni seçmədilər... Hazırda sinif yoldaşlarımın əksəriyyəti xaricdədir. Bakıda olanlarla daim əlaqə saxlayıram”.

İTV rəhbəri 8-ci sinifdən imtahan verib Texniki-Humanitar Liseyə daxil olduğunu, amma bu məktəblə heç vaxt əlaqələrini kəsmədiyini dedi: “Liseydə fəxri direktorumuz görkəmli alim Azad Mirzəcanzadə idi. O məktəbdə oxuyanda da doğma məktəbə tez-tez gəlirdim. Biz fərqli zamanda böyüyürdük. Bunun da fikir və düşüncələrimizə, şəxsiyyət kimi formalaşmağımıza müəyyən təsiri vardı. İqtisadi və siyasi vəziyyət çox fərqli idi. Nə əl telefonu, nə internet vardı. Hamı televizora baxırdı. O zaman televiziya rəhbəri olmaq daha maraqlı idi, çünki səndən çox şey asılı idi. İndi isə tamaşaçını televiziyaya cəlb etməyə çox əziyyət çəkməli olursan”.

## STEREOTİPLƏRİ SINDIRA BİLİRDİK

Qonaq məşhur intellektual oyunlar olan “Nə? Harada? Nə zaman?” və “Breyn-rinq”ə həvəsinin yaranmasından da danışdı: “Liseydə oxuyanda intellektual yarışları həyata keçirən “Atəşgah” klubuna üzv olduq. Yarım ilə yaxın bir dövrdə bizim komanda 15 sualdan birinə cavab verəndə çox sevinirdik. Ən son yerlərdən birində idik. Amma həmişə içimizdə istək vardı, mübariz idik. İnanırdıq ki, nə vaxtsa əziyyətimiz hansısa bir uğura çevriləcək. Elə də oldu... Bir ildən sonra biz artıq məktəblilər arasında Azərbaycan çempionu olduq. Sonra keçmiş sovet ölkələri arasında Rusiyada keçirilən televiziya çempionatında qalib gəldik. Dəfələrlə “Breyn-rinq”in qalibi olmuşuq. O vaxt bu, çox önəmli idi. Çünki ölkəmiz haqqında ittifaq ölkələrində, xüsusən də Rusiya cəmiyyətində müsbət fikirlər formalaşmırdı. O vaxt Azərbaycandan Rusiyaya və digər ölkələrə iş dalınca gedənlər əsasən bazarlarda işləyirdilər. Ona görə azərbaycanlıların obrazını bazarda “göy satan” kimi təqdim etməyə, Ermənistanla münaqişədə ermənilərin tərəfini tutmağa çalışırdılar. Hansısa məsələlər şişirdilirdi. Bizə xoş idi ki, məktəbli, daha sonra tələbə kimi intellektual yarışlarla hansısa stereotipləri sındıra bilirdik. Yarışlardan sonra bizə yaxınlaşıb “sizi belə bilmirdik” deyə etiraf edirdilər. Biz dəfələrlə qalib gəldik, “Cənubi Qafqaz çempionu” olduq. Ən çox çempionluq Azərbaycan komandalarına məxsus idi. Bu günə qədər də elədir. 90-cı illərdə Rusiya və Ukraynada “Nə? Harada? Nə zaman?” və “Breyn-rinq” oyunlarının ənənə və məktəbi folmalaşmışdı. Bu məktəb artıq Azərbaycanda da vardı. Ona görə Moskvada “Nə? Harada? Nə zaman?” verilişində Azərbaycandan bir-iki nəfər yox, çox nümayəndə iştirak edib: Mikayıl Cabbarov, Rövşən Əsgərov, Anar Quliyev, Adnan Axundov, mən və başqaları yarışaraq qalib olmuşuq. Azərbaycanı böyük qürur hissi ilə təmsil etmişik və müəyyən uğurlar da qazanmışıq. Rusiya-Ukrayna müharibəsindən sonra müəyyən fasilə verməyə qərar verdik.

> “Özümü xoşbəxt insan hiss edirəm ki, bu gün işdə fiziki yorulanda da mənəvi yorğunluğu hiss etmirəm. Çünki bu, çox yaradıcı və maraqlı işdir. Siz də ixtisas seçərkən diqqətli olun.”

## LİSENZİYALI BEYNƏLXALQ LAYİHƏLƏRƏ ÜSTÜNLÜK VERİRİK

Amma yenə də bu gün Azərbaycanda həmin intellektual verilişlər var. Siz bu verilişləri İTV-nin efirindən izləyə bilərsiniz. O vaxt belə verilişlərdə iştirak etmək üçün mütləq xaricə getmək lazım idi. Bu gün isə ölkəmizdə həmin verilişlərdə iştirak etmək üçün imkanlar yaradılıb. 2005-ci ildə GameTV.az prodüser mərkəzini yaradıb bu verilişləri Azərbaycanda istehsal etməyə başladıq. Uzun müddətdir ki, 10-a yaxın lisenziyalı beynəlxalq layihəni icra edirik. “Breyn-rinq”, “Nə? Harada? Nə zaman?” oyunlarının televiziya versiyası üçün lisenziya əldə etdik. Həmçinin “Əlaçı” verilişi üçün də lisenziya əldə etmişik. Efirimizdə “Milyonçu” verilişi var. Uzun müddət başa düşə bilmirdim ki, bu verilişə necə baxmaq olar. Bu verilişə 2000-ci ilin əvvəllərində baxırdıq, insan yorulmalıdır. Sonra formulasını başa düşdüm: bizdə pul udmağı və ona baxmağı çox sevirlər. Dekabrın sonundan dünyada məşhur TV şousu “Maska” verilişi bazar günləri efirimizdə olacaq. Çalışırıq ki, xəbərlərimiz gündəmi və reallığı əks etdirsin. Çünki bu gün peykdə, kabel televiziyasında 100-lərlə kanal var. Əgər bu gün izləyicimiz 1000-1200 nəfərdən yüksələrək bir milyonu keçirsə, demək hörmət və etimad qazanmışıq. İki il əvvəl “Əqrəb mövsümü” adlı maraqlı serial çəkmişdik. Bir həftədən sonra ikinci mövsümün çəkilişləri başlayır. Baxmamısınızsa, serialı “YouTube”dan izləyə bilərsiniz.

## PROBLEM ONDADIR Kİ, BU GÜN TELEVİZİYA ANLAMI DƏYİŞİB

B.Qasımov 2018-ci ildə İTV-də Baş direktor olduqdan sonra komandası ilə müasir televiziya yaratmaq uğrunda çalışdığını bildirdi: “Problem ondandır ki, bu gün televiziya anlamı dəyişib. Sizin aranızda gündə yarım saat televizora baxan çətin tapılar. Bizim vaxtımızda informasiyanı əldə etmək üçün evə gəlməli idin. İnsanlar həyat tərzlərini və planlarını televiziyaya görə qururdular. Elə filmlər və seriallar var idi ki, onların nümayişi zamanı küçələrdə adam olmurdu, hamı evdə oturub gözləyirdi. İndi zəmanə fərqlidir. Hər insanın öz televizoru var: smartfon elə televizordur. İstədiyin verilişi və ya filmi “YouTube”dan izləyə bilərsən. Bu da bizim işimizi çətinləşdirir. Artıq bizim kanalın “YouTube” səhifəsinin bir milyondan yuxarı izləyicisi var. Bu günün göstəricilərinə görə, televiziyaya daha çox 45-50+ yaşlı insanlar, təqaüdçülər baxırlar. Onların daha çox vaxtı olur və izləyə bilirlər. Biz çalışırıq ki, gənclərə də maraqlı olacaq verilişlər istehsal edək”.

İTV rəhbəri televiziyanın gələcəyindən ümidsiz danışsa da, meydanda qalmaq üçün mübarizə apardıqlarını da bildirdi: “Bəlkə siz ali məktəbə qəbul olanda televiziya ümumiyyətlə olmayacaq. “Titanik” filminə yəqin hamınız baxmışınız: gəmi batanda artistlər musiqi ifa edirlər ki, təşviş olmasın, amma başa düşürlər ki, hamısı batacaq. Bununla belə, musiqini davam etdirirlər. Mən həmkarlara həmişə deyirəm ki, biz hamımız o orkestrə bənzəyirik. 5-10 ildən sonra hər şey tamam fərqli olacaq. Amma biz də davam edirik. Bizim əslində öz strategiyamız var. Fokusumuz daha çox sosial şəbəkələrdir. Vəzifəmiz ondan ibarət deyil ki, bizi dördbucaqlı cihazdan izləyəsiniz. Vəzifəmiz ondan ibarətdir ki, Azərbaycan dilində məlumat əldə etmək istəyən insanlara kontent hazırlayıb təqdim edək. Bizim üçün fərq etmir ki, tamaşaçı onu dördbucaqlı cihazdan və ya smartfondan izləsin. Ona görə digər kanallar olmayanda İTV “YouTube”da qalacaq. Bu gün meydanları yaradıb öz meydanında diskussiya aparmaq mübarizəsi gedir”.

## İNDİ DƏRSDƏN QAÇMAZDIM...

Şagirdlərdən biri qonağa “Məktəbdə yadda qalan ən maraqlı və ya ən məzəli xatirəniz hansıdır?” sualını ünvanladı. B.Qasımov xatırladı: “O qədərdir ki... Yadımda qalan əsasən xoş, məzəli və müsbət xatirələrdir. Mən nədənsə problem olan hadisələri tez unuduram. Bəlkə bu gün danışmaq yaxşı deyil, amma o qədər olub dərsdən qaçmağımız, imtahan “şparqalka”larını köçürməyimiz... Amma yaxşı oxumuşuq. Mənim iki oğlum var, bunu həmişə onlara da deyirəm. Çox peşmanam, bir dəfə Azad Mirzəcanzadənin ikinci dərsindən qaçıb futbol oynamağa getmişdik. Səmimiyyətimə inanın, indi məktəb illərinə qayıtsaydım, bircə dərs də buraxmazdım...”.



Fotolar: Sabir Məmmədov/Global Media Group



## “SİZİ NƏ MARAQLANDIRIRSA, VAXTINIZI ONA SƏRF EDİN”

“Müstəqil həyata qədəm qoymağa hazırlaşan, ixtisas seçimi ilə üz-üzə qalan gənclərə hansı tövsiyəni verərdiniz”, - deyə məktəbin rus bölməsinin şagirdlərindən biri soruşdu: “Sizi nə maraqlandırırsa, vaxtınızı ona sərf edin. Həyatınızda rol oynamayacaq şeylərə vaxt ayırmayın. Seçiminizi düzgün etməyə çalışın. Mən İqtisad Universitetini bitirmişəm, amma televiziyada çalışıram. Həyatın hansısa bir anında başa düşürsən ki, hansı iş sənə maraqlıdır. Mənim peşəm iqtisadçıdır. Neft şirkətində, bankda işləmişəm. Universitetin 1-ci kursundan günün yarısını işləyirdim. Amma müəyyən vaxtdan sonra fəaliyyət sahəmi dəyişməyə qərar verdim. 2005-ci ildən televiziya layihələri ilə işləməyə başlamışam. Bu iş hobbim oldu. Özümü xoşbəxt insan hiss edirəm ki, bu gün işdə fiziki yorulanda da mənəvi yorğunluğu hiss etmirəm. Çünki bu, çox yaradıcı və maraqlı işdir. Siz də ixtisas seçərkən diqqətli olun. Əgər istəmədiyiniz işlə məşğul olsanız, özünüzü xoşbəxt hiss etməyəcəksiniz. Dünya sürətlə dəyişir. Sizin 90-cı illərin uşaqlarından fərqiniz var. Sizin üçün dövrün tələbinə uyğun peşə seçimi, özünüinkişaf imkanları çoxdur. Onlayn tədrisin verdiyi bilik və bacarıqlardan yararlana bilərsiniz. Özünüzü zənginləşdirmək, inkişaf etdirmək üçün hədsiz imkanlarınız var. Zamanın tələblərinə hazır olmaq lazımdır. Özünüzü harada rahat hiss edərsinizsə, o sahəyə də yönəlin. Çox oxumaq və öyrənmək üçün vaxtınız və imkanlarınız var. Amma unutmayın, həyat nə qədər uzundursa, bir o qədər də qısadır. Dünya sürətlə dəyişir və dinamikdir. Siz də özünüzü bu sürətə uyğunlaşdırın, onda uğur da sizinlə olacaq. Bir də unutmayın, nə ilə məşğul olursan ol, öz işini sevməlisən. Onda cəmiyyətə, ölkənə daha çox fayda vermiş olarsan”.

## İSTƏK HƏYATIN BÜTÜN SAHƏLƏRİNDƏ ƏSASDIR

“Nə? Harada? Nə zaman?” və “Breyn-rinq” komandalarınıza qatılmaq üçün gənclərə intellektdən savayı hansı keyfiyyətlər lazımdır?” - deyə maraqlanan məktəbliyə “Bu yarışlar üçün məntiq əsasdır”, - deyə B.Qasımov cavab verdi: “Bu yarışlara təzə başlayan vaxtlarımızda bu oyunlarla məşğul olmaq üçün məktəb baza bilikləri kifayət idi. Bir də istək əsas idi. Ümumiyyətlə, istək təkcə bu yarışlarda deyil, həyatın bütün sahələrində əsasdır. İstək olanda bir şeyi əldə etmək istəyirsənsə, mütləq mümkün olacaq”.

## ALLAH, VALİDEYNLƏRİM VƏ MÜƏLLİMLƏRİM

Məktəbin müəllimlərindən birinin “Bu gün Azərbaycanda fəaliyyət göstərən televiziya kanallarından birinin rəhbəri kimi uğurlarınıza görə kimə minnətdarsınız?” sualına İTV rəhbəri “Müəllimlərimə”, - deyə cavab verdi: “Mənim müəllim sarıdan bəxtim həmişə gətirib. Həmçinin valideynlərimə minnətdaram. Allaha da minnətdaram ki, bu insanları mənim qarşıma çıxarıb. Hələ də öyrənməyə davam edirəm...”

GENİŞZOLAQLI İNTERNETƏ ÇIXIŞ İMKANI

# İKT SAHƏSİNDƏ İNQİLABİ ADDIM




**Artıq ev təsərrüfatlarının yarısından çoxunun genişzolaqlı internetə çıxış imkanı var. Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi cari ilin sonuna kimi bu rəqəmin 60 faizə çatdırılmasını hədəfləyib. Gələn ilin sonuna qədər Azərbaycanda ən aşağı sürətin 25 Mbit/s olacağı proqnozlaşdırılır.**



AYGÜN ƏZİZ
aygunaziz@kaspi.az

Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi tərəfindən həyata keçirilən “Onlayn Azərbaycan” layihəsi çərçivəsində müxtəlif tutumlu mis kabellər istismardan çıxarılaraq müasir standartlara cavab verən fiber-optik kabellərlə əvəzlənir. Bölgələrdə yüksəksürətli internetin təmin edilməsi üçün görülən işlərin 2024-cü ilin sonuna kimi yekunlaşacağı planlaşdırılır. Yəni gələn ildən Azərbaycan tam olaraq fiber-optikə keçəcək. Bəs fiber-optikə keçid internet məkanında nəyi dəyişəcək? Regionlarda internetin sürəti artacaqmı?

### DAHA YÜKSƏK SÜRƏT, AZ GECİKMƏ

İnformasiya Texnologiyaları əməliyyatlarının təkmilləşdirilməsi üzrə ekspert Azər Əlili “Kaspi” qəzetinə açıqlamasında bildirdi ki, bu dəyişiklik internet istifadəçilərinə yeni imkanlar və daha yaxşı təcrübə vəd edir. Fiber-optik kabel texnologiyası məlumatların işıq sürəti ilə ötürülməsini təmin edir. Üstəlik, texniki problemlərə də daha az meyillidir:


Azər Əlili

“Fiber-optikin ənənəvi DSL və ya digər internet növlərindən üstün cəhətləri çoxdur. Bunlara daha yüksək sürət, məlumat ötürmə keyfiyyəti və az gecikmə müddəti daxildir. Bu texnologiya dəyişikliyi ilə Azərbaycan informasiya texnologiyaları sahəsində dünya standartlarına uyğunlaşacaq və bu, ölkənin iqtisadi inkişafına müsbət təsir göstərəcək”.

### MÜSBƏT TƏSİRLƏRİ GƏLƏN İLLƏRDƏ HİSS EDƏCƏKLƏR

Həmsöhbətimiz bütün ölkə ərazisində fiber-optikə keçidi Azərbaycan üçün İKT sahəsində inqilabi addım adlandırır: “İstifadəçilər bu dəyişikliklərin müsbət təsirlərini gələn illərdə hiss edəcəklər. Ötən illər ərzində dövlət və özəl internet provayderləri tərəfindən ölkənin şəbəkə və kommunikasiya infrastrukturuna böyük yatırımlar edilib. Nəticədə ən uzaq kənd və qəsəbələr belə, artıq optik internet xidməti ilə təmin edilib. Məsələn, Xınalıq kəndi və Lahıc qəsəbəsi bu yenilikdən yararlanan bölgələrdir. Yeni və sonuncu dalğa olaraq planlaşdırılan fiber-optik xətlərin çəkilməsi, ölkənin tam sürətli internet xidmətinə keçidini təmin edəcək və bu, regionumuz üçün ilklərdən biri olacaq”.







## “AZƏRBAYCANDA ƏN AŞAĞI SÜRƏT 25 MBİT/S OLACAQ”

İT mütəxəssisi Elvin Abbasov da təsdiqləyir ki, gələn il Azərbaycanın ucqar kənd və rayonları 25 Mbit/s internetlə təmin olunacaq: “Ookla” şirkəti tərəfindən təqdim edilən hesabata görə, Azərbaycanda genişzolaqlı internetin sürəti son 12 ayda artaraq ortalama 30 Mbit/s-i keçib. Bu da o deməkdir ki, ölkədə genişzolaqlı internetin sürətində ümumilikdə 16 faiz illik artım olub. “Baktelecom”un saytında verilən məlumata görə, 2023-cü ilin 10 ayı ərzində Azərbaycanda 700 minə yaxın ev təsərrüfatının genişzolaqlı internetə çıxışı təmin edilib. Ümumilikdə isə 1,5 milyona yaxın ev təsərrüfatının genişzolaqlı internetə çıxış imkanı yaradılıb. Bu da ölkədəki ev təsərrüfatlarının 52%-i deməkdir. Artıq ev təsərrüfatlarının yarısından çoxunun genişzolaqlı internetə çıxış imkanı var. Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi cari ilin sonuna kimi bu rəqəmin 60 faizə çatdırılmasını hədəfləyib. Gələn ilin sonuna qədər Azərbaycanda ən aşağı sürətin 25 Mbit/s olacağı proqnozlaşdırılır”.




### “HAVA ŞƏRAİTİ İNTERNETİN SÜRƏTİNƏ TƏSİR ETMƏYƏCƏK”

İnternetin sürətinə hava şəraitinin dəyişməsi də təsir edirdi. Mütəxəssis deyir ki, fiber-optiklə bu problemlər də aradan qaldırılacaq: “Optik kabel texnologiyasının son trendi hesab edilən GPON ənənəvi mis kabel xətləri olmadan yüksəksürətli məlumat ötürülməsinə və hava şəraitindən asılı olmayaraq, kəsintisiz xidmət göstərilməsinə imkan yaradır. Əvvəlki texnologiyada isə yağış, külək simli xətləri deformasiyaya uğradırdı. Bu, həm torpağın, həm də suyun altından keçən dözümlü və sürətli texnologiyadır”.


Elvin Abbasov

Foto: Sabir Məmmədov, Global Media Group

## UCQAR KƏNDLƏRİN İNTERNET PROBLEMİ HƏLL OLUNACAQ?

Məlumdur ki, Azərbaycanda ucqar kəndlərdə yaşayan insanlar uzun müddətdir internetin sürəti ilə bağlı problemlər yaşayırdılar. Biz xüsusilə pandemiya dövründə orada yaşayan şagirdlərin dərslərə qoşula bilmədiklərinin şahidi olurduq.

A.Əlili vurğulayır ki, fiber-optikə keçid ucqar kəndlərdə internet problemini tam aradan qaldıracaq: “Fiber-optik GPON (Gigabit Passive Optical Networks) texnologiyasının tətbiqi ilə bu problemin həllində mühüm addım atılır. Yüksək sürətli internet xidmətinin təqdim edilməsi həm şagirdlərin, həm də müəllimlərin təhsil prosesində işini rahatlaşdıracaq. Nəticədə ucqar kəndlərdə də təhsilin keyfiyyəti artacaq və daha rəqabətli pedaqoji mühit formalaşacaq. Azərbaycanın genişzolaqlı internet şəbəkəsinin genişləndirilməsi, ölkənin qlobal İKT məkanında daha da rəqabətqabiliyyətli olmasına və vətəndaşlarının həyat keyfiyyətinin yüksəldilməsinə xidmət edən addımdır. Bu, həmçinin, e-təhsil, e-səhiyyə, e-sağlamlıq və e-hökumət kimi xidmətlərin daha geniş tətbiq olunmasına imkan yaradacaq, bu da ölkənin texnoloji inkişaf yolunda irəliləməsinə kömək edəcək”.

## İNVESTİSİYA AXININDA YENİ İSTİQAMƏT

# Bakı sənaye şəhəri STATUSUNU İTİRİR?

Ölkədə sənaye istehsalının əksər hissəsinin Bakı və Abşeron iqtisadi zonasında cəmləşməsinə baxmayaraq, son illərdə bu göstəricinin tədricən azalması müşahidə edilir. Ekspertlər hesab edirlər ki, bu, daha çox sənaye istehsalının bölgələrə istiqamətlənməsi ilə bağlıdır.



ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az



**Foto:** Tapdıq Abdullayev / Global Media Group

Rəsmi statistik məlumata görə, 2023-cü ilin yanvar-sentyabr aylarında Bakı şəhəri üzrə sənayedə istehsal olunmuş malların və göstərilmiş xidmətlərin həcmi 45,2 mlrd. manat təşkil edib. Bu da əvvəlki illərlə müqayisədə 19,4 faiz azdır. Bəs Bakıda sənaye istehsalının zəifləməsinə səbəb nədir?

### BU PROSESİ TƏBİİ QARŞILAMALIYIQ

İqtisadçı Fuad İbrahimov “Kaspi” qəzetinə açıqlamasında bildirib ki, statistik göstəricilərin əvvəl artıb, sonra azalması pandemiyadan sonrakı dövrlə əlaqədardır: “2023-cü ilin doqquz ayında rəqəmləri təhlil edərkən nəzərə almaq lazımdır ki, post-pandemiya dövründə ilk növbədə istənilən sahə üzrə statistik sıçrayışlar mümkün idi. Çünki uzun müddətli fasilədən, müəyyən məhdudiyyətlərdən sonra müəssisələrin fəaliyyətə başlaması nəticəsində sənayedə də sıçrayışlı artımlar müşahidə olunurdu. Əslində bu, əksər ölkələrdə, dünya iqtisadiyyatının bir çox sahələrində belədir. Bu baxımdan stabilləşməni təbii qarşılamaq lazımdır”.

### SƏNAYENİN ŞƏHƏRƏTRAFI HALQAYA KEÇMƏSİ MÜŞAHİDƏ OLUNUR

F.İbrahimov bildirdi ki, həqiqətən də sənaye sahələri yavaş-yavaş regionlara köçürülür: “Sənaye istehsalının azalması Bakı şəhərətrafı halqasına keçməsi ilə müşahidə olunur. Hesab edirəm ki, həm ətraf mühitin mühafizəsi, həm şəhər halqasındakı sıxlıq ilə bağlı istehsal müəssisələrinin şəhərdən kənara, regionlara köçürülməsi prioritet məsələlərdəndir. Bu prosesin bölgələrə köçürülməsi şəhərin yükdən azad olması, eyni zamanda, regionların inkişafında mühüm əhəmiyyət kəsb edəcək. Hazırda işğaldan azad olunmuş torpaqların inteqrasiya prosesi ilə bağlı əhəmiyyətli işlər görülür”.

İqtisadçı bildirib ki, bu proseslə bağlı rəqəmlər daha da azalacaq: “Çünki əhali artır, iqtisadiyyat inkişaf edir, bununla yanaşı, mövcud vəziyyətlə bağlı bölgələrimizə investisiya qoyuluşları da artır. Bu baxımdan təbii prosesdir. Proqnozlaşdırmaq olar ki, Bakı şəhərində sənaye istehsalı bu proseslər əsasında tədricən azalacaq”.



## RAYONLARDA SƏNAYE SAHƏLƏRİNİN SAYI ÇOX AZDIR

İqtisadçı Günay Hüseynovaya görə, hər bir ölkənin iqtisadi vəziyyəti sənayesinin inkişaf səviyyəsi ilə ölçülür: “Son illərin statistikasına nəzər yetirdikdə görürük ki, bizdə bu sahədən əldə edilən gəlirlər əvvəlki illərə müqayisədə azalır. Son 15 ilin statistikasına əsasən, bu illərdə ölkə iqtisadiyyatının, qeyri-neft sənayesinin inkişaf etdirilməsi istiqamətində bir sıra dövlət proqramları qəbul edilib, icra olunub. Habelə ölkədə biznes mühitinin yaxşılaşdırılması istiqamətində əhəmiyyətli addımlar atılıb. Bütün bunlara baxmayaraq, ölkənin sənaye sektoru ümumi inkişafdan geri qalır. Narahatedici məqam odur ki, ölkənin sənaye potensialının 90 faizi Bakı, Abşeron iqtisadi rayonunun payına düşür”.

### SƏNAYE İSTEHSALI ÇOXŞAXƏLİ OLMALIDIR

G.Hüseynovaya görə işlər elə qurulmalıdır ki, sənayedə istehsal olunan məhsullarımız dünya bazarında rəqabətə davamlı olsunlar: “Digər tərəfdən, ölkənin sənaye istehsalı çoxşaxəli olmalıdır. Bu, gələcək iqtisadi tənəzzülün qarşısını almaq deməkdir. Sənayenin sahə quruluşu elə olmalıdır ki, mövcud resurs imkanları çərçivəsində özünün və ölkənin ehtiyaclarını öz məhsulları ilə mümkün qədər təmin edə bilsin, daha çox ixraca hədəflənsin. Ölkədə sənaye sahəsində marketinq siyasəti də yox dərəcəsindədir. Xarici bazarlara çıxa, öz məhsulumuzu onlara tanıda bilmirik. Rəqabət qabiliyyətli məhsul istehsal edilərsə, yaxşı marketinq siyasəti qurularsa, məhsul ixrac edilər, ölkənin tədiyyə balansına müsbət təsir göstərilməklə milli sərvətin artırılmasına nail olarıq”.


Günay Hüseynova

## “BU, DÖVLƏTİN İQTİSADİ SİYASƏTİDİR”

İqtisadçı ekspert Samir Heydərov isə açıqlanan statistika ilə razılaşmır: “Məncə, Bakıda sənaye istehsalında azalma olmayıb. İşğaldan azad olunmuş torpaqlarda zavodların açılması o demək deyil ki, Bakıda sənaye istehsalı azalır. Bu, dövlətin iqtisadi siyasətidir. Məsələn, Laçında 5 istehsal müəssisəsi açılırsa, bu 430 iş yeri deməkdir. İşğaldan azad olunmuş torpaqlarda çoxlu bərpa və quruculuq işləri ilə yanaşı, zavod və fabriklər də açılır. Bu, dövlətin uğurlu iqtisadi siyasətinə dəlalət edir”.

Yeri gəlmişkən, iqtisadiyyat naziri Mikayıl Cabbarov Bakıda “Dayanıqlı maliyyə və investisiya” mövzusunda keçirilən II Bakı Forumunda bildirib ki, Azərbaycanın Milli Prioritetlərində və 2022-2026-cı illər üzrə sosial-iqtisadi inkişaf Strategiyasında qeyri-neft-qaz iqtisadiyyatını daha da inkişaf etdirmək, insan kapitalının inkişafı nəticəsində dünya iqtisadiyyatında mövqeyi gücləndirmək, yüksək gəlirli ölkələr qrupuna daxil olmaq hədəflənir: “Strategiyanın icrası nəticəsində ölkə iqtisadiyyatının hər il orta hesabla 3-4%, qeyri-neft qaz ÜDM-in isə illik orta hesabla 5% artımı, habelə özəl sektorun iqtisadiyyatda payının 88%-ə çatdırılması, 2021-ci illə müqayisədə 2026-cı ildə qeyri-neft-qaz ixracının həcminin 85% artırılması hədəflənir”.


Fuad İbrahimov

# VALİDEYN MƏSULİYYƏTSİZLİYİ, SƏHİYYƏDƏKİ BOŞLUQLAR...



Qızılcaya qarşı peyvənd bir və altı yaşında edilir. Vaxtilə vaksinasiyanın düzgün həyata keçirilməsi nəticəsində Azərbaycanda bu qrup xəstəliklər demək olar ki, minimuma enmişdi. İndi Zaqatala və bir neçə bölgələrdə yenidən başlaması vaksinasiya prosesində ciddi yanlışlığın olduğunu göstərir.



AYGÜN ƏZİZ
aygunaziz@kaspi.az

Zaqatala Rayon Mərkəzi Xəstəxanasına bir ay ərzində qızılca simptomları ilə 64 müraciət daxil olub. Güclü yoluxdurma qabiliyyətinə malik olduğu üçün bu rəqəmlər valideynlər arasında narahatlığa səbəb olub. Maraqlıdır, əvvəllər qızılca xəstəliyinin yayılması ilə bağlı məlumatları gec-gec eşidirdik. Bəs son vaxtlar bu xəstəliyin yenidən gündəmə gəlməsinə səbəb nədir? Zaqataladakı yoluxma bütün ölkəni əhatə edə bilərmi?

### VAKSİNASİYA PROSESİNDƏ CİDDİ YANLIŞLIQ VAR

Milli Məclisin Səhiyyə komitəsinin üzvü, deputat Müşfiq Məmmədli "Kaspi" qəzetinə açıqlamasında bildirdi ki, mövsümü olduğu üçün qızılca hazırda qonşu ölkələrdə də özünü göstərir: "Qızılca uşaq infeksion xəstəlikləri qrupuna aiddir və biz müəyyən dövrlərdə yoluxmanı müşahidə edə bilərik. Amma uşaq infeksion xəstəlikləri, xüsusilə də qızılca ilə mübarizədə vaksinasiya mühüm əhəmiyyət kəsb edir. Qızılcaya qarşı peyvənd bir və altı yaşında edilir. Vaxtila vaksinasiyanın düzgün həyata keçirilməsi nəticəsində Azərbaycanda bu qrup xəstəliklər demək olar ki, minimuma enmişdi. İndi Zaqatalada olanlar vaksinasiya prosesində ciddi yanlışlığın olduğunu göstərir".



### İLKİN SƏHİYYƏ XİDMƏTLƏRİNDƏ BOŞLUQLAR VAR

Deputat qeyd edir ki, ilkin səhiyyə xidmətlərində boşluqlar var: "Sanitar epidemioloji stansiyalar əvvəlki qaydada tam gücü ilə fəaliyyət göstərə bilmir və infeksionistlər ilkin səhiyyə xidmətlərindən götürülərək ancaq stasionarlarda yerləşdirilib. Bu da bu prosesdə peşəkar nəzarətin bir qədər zəifləməsinə gətirib çıxarır. Sosial şəbəkələrdə peyvəndlərə qarşı əsassız şübhələrin yaradılması, peyvənddən imtinanın təbliği vaksinasiya prosesində ciddi problemlər yaradır. Bu, könüllülük əsasında həyata keçirildiyi üçün valideynlər ilkin səhiyyə xidmətində peyvənddən imtina edə bilirlər. Üstəlik, həmin uşaqlar bağçalara, məktəblərə o imtina əsas gətirilərək qəbul olunur. Bu da vaksinsiz uşaqların kollektivdə olmasına gətirib çıxarır. Bir uşaq qızılca olduqda, yüksək sürətli yayılma qabiliyyəti olan virus bütün kollektivi yoluxdurur".

### QIZILCANI RAM ETMİŞDİK, AMMA...

Pediatr Vaqif Qarayev bildirdi ki, bütün dünyada qızılcadan qorunmağın yeganə yolu peyvənddir: "Qızılcanı ram etmişdik, amma COVID-dən də 1-2 il əvvəl kütləvi şəkildə yayılmasının şahidi olduq. Ən böyük səbəbi isə valideynlərin övladlarını peyvənddən qorumasıdır. Bu gün dünyada peyvənd əleyhinə mübarizə aparan böyük bir ordu var. İnsanlar övladlarını qorumaq üçün bu orduya qoşulmamalıdır. Peyvənd adı çəkən kimi həkimi söyür, təhqir edirlər. İnsanlar tibbin dediyinə inanmır, ara adamların fikirlərini düzgün hesab edirlər. Nəticəsi də budur".

Pediatr deyir ki, COVID-dən öncə xəstəxanalar qızılcaya yoluxanlarla dolu idi: "COVID başlayandan sonra məktəblər bağlandı. Elə ki, COVID-i aşdıq, qızılca və qrip yenidən baş qaldırdı. Tək Zaqatalada yox, hər yerdə var. Qızılca ağırlaşmaları çox təhlükəlidir. Tibb əhli də qorxur ki, ölüm faizi çoxalacaq".




Müşfiq Məmmədli

Foto: Rüfət Mikayılov/Global Media Group

## PEYVƏNDDƏN YAYINAN VALİDEYNLƏR MƏSULİYYƏTƏ CƏLB OLUNMALIDIRMI?

Səhiyyə Nazirliyinin səhiyyə siyasəti şöbəsinin Ana və uşaqların sağlamlığının qorunması sektorunun müdiri Aynurə Zeynalova bildirib ki, övladını müayinəyə aparmayan, peyvənddən yayındıran valideynlər barəsində İnzibati Xətalar Məcəlləsinin (İXM) müvafiq maddəsində məsuliyyət növü var: "İnzibati Xətalar Məcəlləsinin 214-cü maddəsində qeyd edilən məqamlar var. Həmin qanun uşaqların icbari dispanserizasiyası haqqında qanunvericiliyin pozulması barədə məqamları özündə ehtiva edir. Peyvənd bu maddənin bir hissəsidir və həmin maddə də qeyd edilən digər hallarda da bu məsuliyyətə cəlb olunma qüvvədə qalır. Valideynlərin uşaqlarını vaxtında müayinəyə, peyvəndə gətirməsi ilə bağlı onlarla danışıqlar aparılmalıdır. Bu istiqamətdə maarifləndirmə tədbirlərinə ehtiyac var. Bu kimi hallar israrla təkrarlandığı halda isə qanunla həmin valideynlərin məsuliyyətə cəlb edilməsi təmin edilməlidir".

### İŞ İŞDƏN KEÇƏNDƏ ARTIQ GEC OLUR

Vaqif Qarayev də həmin valideynlərin məsuliyyətə cəlb olunmasının tərəfdarıdır: "Sovet dövründə poliklinikaya valideyni polislə gətirirdilər. Mən bir ölkədə işləyirdim. O zaman balaca qəsəbədə hökumət əhaliyə ev verirdi. Peyvənddən imtina edənlərin hətta evi əllərindən alınırdı. Peyvənd çox ciddi məsələ idi. Hər bir valideyn "qızılca" yazıb axtarış versin və görsün dünyada nələr baş verir və təhlükəsi nədir. Valideynlər gəlir, soruşuruq ki, uşaq niyə peyvənd olunmayıb, deyir ki, bilmirik, dedilər ziyandır. İş işdən keçəndə artıq gec olur".

## HANSI YEMƏK, YAXUD MEYVƏ QIZILCAYA QARŞI ANTİTEL YARADIR?



Vaqif Qarayev

Bəzi valideynlər isə düşünür ki, müəyyən qidalarla uşağın immunitetini qaldırmaqla qızılcadan qorumaq mümkündür. Həkim vurğulayır ki, acınacaqlısı bunu tək valideynin deməyi deyil, bu fikirdə olan həkimlərin də olmasıdır: "Bu, dəhşətlidir. Hansı yemək, yaxud meyvə qızılcaya qarşı antitel yaradır? Elə bir ərzaq məhsulu, qida maddəsi varmı? Elmin üzərinə bu qədər cahilcəsinə getmək olmaz".

### PEYVƏND 100 FAİZ QORUYUR

Qeyd edək ki, Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) qızılcanın yüksək dərəcədə yoluxucu olduğunu və qripdən altı dəfə daha çox sürətlə yayıldığını bildirib. Xəstəliyin ciddi fəsadlarına korluq, ensefalit (beynin iltihabı), qulaq infeksiyaları (daimi karlıq) və pnevmoniya kimi ağır tənəffüs yolları infeksiyaları daxildir. Həmçinin bildirilib ki, qızılcaya qarşı vurulan QPM peyvəndinin iki dozası bu xəstəlikdən demək olar ki, 100 faiz qoruyur.

# ƏHALİ ÜÇÜN DAHA YAXŞI OLACAQ

**Sumqayıt şəhərinin, Binəqədi və Abşeron rayonlarının sərhədlərinin müəyyənləşdirilməsi haqqında qanunun qüvvəyə minməsi ilə çoxdandır mövcud olan problemin həlli istiqamətində ilk addım atılıb. Bu gün Bakının Sabunçu, Suraxanı, Xəzər, Qaradağ rayonlarında da analoji problem həllini gözləyir.**



İLHAMƏ ƏBÜLFƏT




Bir neçə gün əvvəl Prezident İlham Əliyev "Bakı şəhəri Binəqədi rayonunun, Sumqayıt şəhərinin və Abşeron rayonunun sərhədlərinin müəyyənləşdirilməsi haqqında" qanunu təsdiqləyib. Qanunla Binəqədi qəsəbəsinin ərazisindən 1213 ha torpaq sahəsi, Abşeron rayonunun inzibati ərazisində yerləşən 375 ha və 2223,67 ha torpaq sahələri Sumqayıt şəhərinin inzibati ərazisinə veriləcək. Bəs bu qanunun qüvvəyə minməsindən sonra ərazidə yaşayan əhalini hansı dəyişikliklər gözləyir?



Eyvaz Qocayev

### XİDMƏT SAHƏLƏRİ SUMQAYITLA BAĞLI OLACAQ

Sumqayıt Şəhər İcra Hakimiyyətinin Mətbuat Xidmətinin rəhbəri Eyvaz Qocayev "Kaspi" qəzetinə açıqlamasında bildirib ki, "Bakı şəhəri Binəqədi rayonunun, Sumqayıt şəhərinin və Abşeron rayonunun sərhədlərinin müəyyənləşdirilməsi haqqında" qanun qüvvəyə minməmişdən əvvəl də qeyd olunan ərazilərdə yaşayan əhalinin sosial təminatı, kommunal və digər xidmətləri Sumqayıt şəhərində fəaliyyət göstərən müvafiq dövlət idarələri tərəfindən həyata keçirilib: "Lakin bu ərazilər Binəqədi və Abşeron ərazisinə aid idi. Qanun layihəsinin qəbulundan sonra bu ərazilər artıq rəsmən Sumqayıta aiddir. Eyni zamanda, xidmət sahələri də əvvəlki kimi Sumqayıtla bağlı olacaq".

### MƏQSƏD SUMQAYITIN SOSİAL-İQTİSADİ İNKİŞAFIDIR

Milli Məclisin deputatı Kamran Bayramovun sözlərinə görə, Prezident İlham Əliyevin imzaladığı qanunun əsas məqsədi Sumqayıtın sosial-iqtisadi inkişafının təmin edilməsidir: "Eyni zamanda, orada yaşayan vətəndaşların rifahının yaxşılaşdırılması, yaşadıqları ərazinin abadlaşdırılması da bu məqsədlərə daxildir. Sumqayıt böyük şəhərdir. Təbii ki, orada yaşayan insanların şəhər sakinləri kimi statusu olacaq. Bu, müvafiq layihələrin həyata keçirilməsi üçün əlverişlidir. Bildiyiniz kimi, son zamanlar ölkədə böyük infrastruktur layihələri həyata keçirilir. Sumqayıtda da islahatlar, quruculuq işləri aparılıb. Bu yaxınlarda dövlət başçısı da orada açılışlara qatıldı. Binəqədi və Abşeronun bəzi ərazilərinin Sumqayıta verilməsi yaxşı təcrübədir və ərazisinin genişlənməsi oranın iqtisadi inkişafına xidmət edəcək".



Kamran Bayramov

## SUMQAYITDA EVLƏRİN SƏNƏDLƏŞDİRİLMƏSİNDƏ PROBLEM YOXDUR

"Bələdiyyələrin fəaliyyətinin təbliği" İctimai Birliyinin sədri Vüqar Tofiqli bildirib ki, Binəqədi və Abşeron rayonlarından hektarlarla ərazilərin Sumqayıt şəhərinə verilməsinin müəyyən əsasları var: "Sumqayıtın iqtisadi şəhər kimi bərpa edilməsi planları mövcuddur və bu istiqamətdə ciddi addımlar atılır. Həmin ərazilərdə yaşayan insanlar üçün xüsusi dəyişikliklər gözlənilmir. Oradakı məktəblər, poliklinikalar yenə də fəaliyyət göstərəcəklər. Həmin ərazidə formalaşan bələdiyyələrdə də heç bir dəyişiklik olmayacaq. Çünki Abşeron və Binəqədi rayonları ərazisində torpaqların oradakı bələdiyyələrə verilmə prosesi başa çatmayıb. 20 ildən artıqdır ki, bu proses davam edir və nə zaman bitəcəyi bilinmir. Orada əhalinin məskunlaşması məsələsi varsa, güman edirəm ki, proseslərdən sonra mənzillərin, fərdi evlərin çıxarış məsələsi sürətlənəcək. Çünki Sumqayıt şəhərində sənədsiz mənzillərə sahib əhalinin evlərinin sənədləşdirilməsində problem yoxdur. Ona görə ki, orada bələdiyyələrin mülkiyyətinə torpaq verilib. Binəqədi ərazisində isə bu qeyri-mümkün idi".

### BİR ƏRAZİ, ÜÇ RAYON

Ekspert vurğulayıb ki, mərkəzi icra orqanları regional idarəetməyə keçid etdiyindən hər hansı bir problemin olması gözlənilmir: "Arzu edərdim ki, gələcəkdə bu cür qarışıqlıq olan ərazilərin məsələsi də öz həllini tapsın. Bu gün Bakının Sabunçu, Suraxanı, Xəzər, Binəqədi və Qaradağ rayonlarının inzibati əraziləri dolaşıqdır. Təsəvvür edin ki, Binə qəsəbəsində 155 mindən çox əhali yaşayır. Bu ərazilərdə yaşayan sakinlər - Xəzər, Suraxanı və ya Abşeron rayonuna müraciət etmək üzrə bölünür. Yəni əhali bir ərazidə yaşayır, amma üç rayon baxır. Yaxud, bir qəsəbənin 3 rayona tabeliyi var. Vaxtilə ciddi problem yaradan məmurların sayəsində bu rayonlarda sərhədin müəyyənləşdirilməsi mümkün olmayıb. İnzibati ərazilərdəki sərhəd bölgüsünün dəqiqləşdirilməsi, ərazilərdəki sənədsiz mənzillərin sənədləşdirilməsi prosesi başa çatdırılmalıdır. Bu baxımdan, Sumqayıtla bağlı son addım müsbət haldır".



Vüqar Tofiqli

Kaspi
ÜÇ ƏSRİN QƏZETİ

Təsisçi
**Global Media Group**

Baş redaktor
**İlham Quliyev**

Redaksiya
Baş redaktorun müavini - **Azad Əliyev**
Müxbirlər – **Təranə Məhərrəmova, Aygün Əziz, Zərif Salmanlı**
Müəlliflər – **Azər Nuriyev, Rufik İsmayılov, Xanım Aydın, Könül Cəfərli, Kubra Məhərrəmova, İlhamə Əbülfət, Aysel Aslan, Faiq Tahirov**
Korrektor – **Vüsal Əliyev**

Texniki şöbə
Kreativ direktor – **Murad Arbay**
Dizaynerlər
**Lalə Qasımova, İlham İsmayılov, Aydan Məmmədli**
Yayım və satış meneceri
**Vadim Manafov**

Ünvan
**Bakı, Səməd Vurğun 34, AF Mall**
**Telefon: (012) 525 03 31**
**kaspiqazeti@kaspi.az**

Qəzet "Azərbaycan" nəşriyyatında çap olunub.
Sifariş: 3100
Tiraj: 2250
Müəlliflərin mövqeyi redaksiyanın mövqeyi ilə üst-üstə düşməyə bilər.

AZƏRBAYCANDA ABORTLARIN SAYI İLƏ BAĞLI NARAHATEDİCİ STATİSTİKA

# ABORT ÇIXIŞ YOLU DEYİL, HƏM DƏ TƏHLÜKƏDİR

İlk hamiləliyin abortu bəzən gələcəkdə sonsuzluqla nəticələnə bilər. Bu problem bir neçə abort keçirtmiş qadınlarda da yaranır. Abort zamanı uşaqlığın daxili divarı zədələnir, aşerman sindromu yaranır, qadın hamilə qala bilmir.



AYGÜN ƏZİZ
aygunaziz@kaspi.az

Azərbaycanda abortların sayı ilə bağlı statistika son 10 ildir ki, həyəcanlandırır. 2021-ci ildə bu say rekord həddə çatmışdı. 2022-ci ildəki rəqəmlər də ürəkaçan olmadı. 2021-ci ildə ümumi abortların sayı 46877, 2022-ci ildə isə 31747 idi. Mütəxəssislər real rəqəmlərin statistikadan dəfələrlə çox olduğu qənaətindədirlər.

Ötən günlərdə BMT-nin Əhali Fondunun Azərbaycandakı nümayəndəliyinin rəhbəri Fərid Babayev də ölkədə abortların sayının hazırda yüksək olduğunu dilə gətirib. BMT nümayəndəsi həmçinin Azərbaycanın selektiv abortlara görə də dünya ölkələri arasında lider olduğunu bildirib.

Bəs Azərbaycanda bu artımın səbəbi nədir? Nə üçün abort çıxış yolu hesab olunur? Ümumiyyətlə, abortların hansı təhlükələri var?

### 18-35 YAŞ ARASI QADINLAR ABORTA MÜRACİƏT EDİRLƏR

Məlumat üçün bildirək ki, Azərbaycanda abort hamiləliyin 12-ci həftəsinə qədər qanunidir. Həmçinin Cinayət Məcəlləsinin 141-ci maddəsində qanunsuz abort etmə ilə bağlı maddə mövcuddur. Heç bir tibbi göstəriş olmadan hamiləliyin süni surətdə pozulması üçün xüsusi məsuliyyət növü müəyyən edilib.

Səhiyyə Nazirliyi Elmi-Tədqiqat Mamalıq və Ginekologiya İnstitutunun elmi katibi, həkim mama-ginekoloq Aynurə Əmirova deyir ki, abortların əsas səbəblərindən biri kontraseptiv vasitələrdən istifadə olunmaması və qadınların hamiləliyin planlaması ilə bağlı məlumatlarının az olmasıdır: "Təbii ki, bu da arzuolunmaz hamiləliklərə gətirib çıxarır və nəticədə abortların sayı artır. Aborta müraciət edənlər arasında daha çox 18-35 yaş arası qadınlar üstünlük təşkil edir".

### ABORT ÖLÜMLƏ DƏ SONLANA BİLƏR



Aynurə Əmirova

Abortun təhlükəsinə gəldikdə isə, mama-ginekoloq vurğulayır ki, abort ümumiyyətlə qadının həm hormonal, həm də psixoloji durumuna mənfi təsir göstərir: "Abort, qaydalara riayət olunmadıqda, ciddi fəsadla, hətta ölümlə nəticələnə bilər. Xəstəxana şəraitindən kənar vəziyyətdə və uyğun olmayan şəraitdə həyata keçirilən abortlar infeksion ağırlaşmalara səbəb olur. Bəzi qadınlar ev şəraitində xüsusi dərmanlardan istifadə edərək hamiləliyi sonlandırmağa çalışırlar. Hamilə qadın həkim nəzarətində olmalıdır".

### ABORT SONSUZLUQLA DA NƏTİCƏLƏNİR

Həkim vurğulayır ki, ilk hamiləliyin abortu bəzən gələcəkdə sonsuzluqla nəticələnə bilər: "Bu problem bir neçə abort keçirtmiş qadınlarda da yaranır. Abort zamanı uşaqlığın daxili divarı zədələnir, aşerman sindromu yaranır, qadın hamilə qala bilmir. Erkən həftələrdə baş tutan abort 12-ci həftədən sonra icra olunan abortdan daha az fəsad yaradır".

Bəzi qadınlar ailə planlaşdırmalarında növbəti uşağın dünyaya gəlməsini nəzərdə tutmur, aborta müraciət edirlər. Buna səbəb kimi iqtisadi və ya sosial səbəbləri göstərirlər. Bəziləri isə şüurlu şəkildə hamilə qalır, dölün cinsiyyətini öyrəndikdən sonra aborta müraciət edirlər. Mütəxəssislər bildirirlər ki, abortlar əsasən cins seçiminə görə baş verir. Təsadüfi deyil ki, biz, dünyaya gələn uşaqların cins nisbətinə görə selektiv aborta üstünlük verən dövlətlər arasında zirvədəyik.




## ACINACAQLISI ODUR Kİ...

"Vətəndaş" İctimai Birliyinin sədri Günel Səfərova deyir ki, qanunvericilikdə ananın həyatına təhlükə varsa, abort edilməsi halları mövcuddur. Amma məhz buna görə aborta müraciət edənlərin sayının çox az olduğunu düşünür: "Ümumi abort sayının neçə faizinin ananın həyatına təhlükə olduğu halda həyata keçirildiyi müəyyələşdirilməlidir. Təəssüflər olsun ki, bizdə əsas səbəb bu deyil. Hamımız bilirik ki, bizim ailələrdə hələ də qız uşağına yanaşma ürəkaçan deyil. Hətta ailədə üç qız, bir oğul varsa, ailə oğlanı evin tək uşağı kimi göstərir. Acınacaqlısı odur ki, biz 2023-cü ildə bunu müzakirə edirik".

### SELEKTİV ABORTLARI EDƏNLƏR CƏZALANDIRILSA...

QHT sədri düşünür ki, abortların sayını azaltmaq üçün maarifləndirmə ilə yanaşı, qanunların işləkliyini artırmalıyıq: "Əminəm ki, bu gün abort qanunla qadağan edilsə belə, yenə də cinsiyyət bilindikdən sonra abort halları baş verir və gələcəkdə də verəcək. Çünki cəza mexanizmləri yoxdur. Selektiv abortları edənlər cəzalandırılsa, inanıram ki, ümumi abort sayında da azalmanı müşahidə edəcəyik".



Günel Səfərova

Foto: Sabir Məmmədov / Global Media Group

## "KÖÇƏRİ QUŞ, MADDİ YÜK"DÜR STEREOTİPİ

Klinik psixoloq Rövşən Nəcəfov deyir ki, selektiv abortların sayının artmasında patriarxal düşüncənin psixoloji basqısı və müasir tibbi texnoloji vasitələrdən sui-istifadə əsas rol oynayır: "Dölün cinsiyyətini müəyyən etməyə imkan verən ultrasəs müayinə cihazlarının əlçatanlığı selektiv abortların artmasına şərait yaradır. Həmçinin patriarxal düşüncənin psixoloji basqısı da stereotip yanaşmalar yaradır. İnsanlar psixoloji olaraq, daha çox sağlamlığı yox, inancları qoruyurlar. Oğlan uşaqlarına verilən üstünlüyə haqq qazandıran yanlış düşüncələr mövcuddur. Qızlar isə inanclara görə köçəri quş, maddi yük hesab edilir".

Mütəxəssis vurğulayır ki, bu problemlə mübarizə aparmaq üçün düşüncə dəyişməlidir: "Psixologiyanın qızıl qaydası odur ki, insan düşüncəsini dəyişəndə həyatı dəyişir. İnsanların yanlış inancları dəyişməlidir. Alternativ düşüncələrin və izahların geniş təbliğata ehtiyacı var. Gender əsaslı cins seçiminin doğurduğu fəsadlar sırasında psixoloji travmalar da mövcuddur. Psixoloq müdaxiləsi ilə selektiv abortların qarşısını almaq mümkündür".



Rövşən Nəcəfov

# YAŞARI UNUTMAQ MÜMKÜN DEYİL



22 noyabr Xalq artisti Yaşar Nurinin xatirə günü idi. Unudulmaz aktyor xoş xatirələrlə anılır. Dostları, sənət yoldaşları onu əvəzolunmaz sənətkar, sədaqətli dost, qayğıkeş tərəf müqabili kimi xatırlayırlar.



TƏRANƏ MƏHƏRRƏMOVA
taranamaharramova@kaspi.az

Özü haqqında “Nadiri taxta görən adam” deyirdi. Baxmayaraq ki, yaşı o qədər də çox deyildi, amma həyatın dərsləri, oynadığı obrazların sanbalı, sənətinin ağırlığı, insanlara olan münasibəti, tamaşaçıların sonsuz sevgisi bu sözləri deməsinə haqq verirdi. Xalq artisti Yaşar Nurini 22 noyabr - xatirəsi günündə xatırlayan sənət dostları da onu təkcə bütün xalqın sevdiyi, sənətdə izi qalan aktyor yox, həm də başqalarına kömək edən, gənclərin hamisi adlandırıblar.

### “YAŞAR HƏYATDAN ERKƏN GETDİ...”

Xalq artisti, rejissor Mərahim Fərzəlibəyov “Yaşar Nuri hərtərəfli aktyor idi. O, yumor, satira, komediya janrlarında oynayırdı, amma qəlbində dramatik insan obrazı vardı. Hər komik aktyor dramatik rollar oynaya bilmir, amma Yaşar bunu çox gözəl bacarırdı”, - deyə sənət dostunu xatırlayır: “Bu, Yaşarın gənc vaxtında televiziyada çəkilən “Səni axtarıram” tamaşasında oynadığı rolla özünü göstərdi”. M.Fərzəlibəyov Yaşar Nuri ilə bir neçə tamaşada işləyib, birlikdə “Ölülər” filmində çəkiliblər: “Bir rejissor kimi çox təəssüf edirəm ki, Yaşar həyatdan erkən getdi, o, hələ çox rol oynaya bilərdi. Aktyorun yaşı olmur. Yaşar Nuri xoşbəxt sənətkar olub, çünki həmişə tamaşaçıların yadında qalıb. Onun oynadığı filmlər həmişə göstərilir, haqqında kitablar yazılır, məhəbbətlə xatırlanır. Onu heç vaxt unutmurlar. Çünki Yaşarı unutmaq mümkün deyil!”

### YAŞAR BU GÜN YOXDUR...

Xalq artisti Səidə Quliyeva deyir ki, Yaşar Nuridən səhnədə çox şey öyrənib: “Yaşar elə bir aktyor idi ki, o, öz oyunu ilə tərəf müqabilinə kömək edirdi. Bu xüsusiyyət nadir aktyorlara məxsusdur. Aktyor var, səhnəyə çıxır, roluna uyğun oynayır və tərəf müqabilini qətiyyən düşünmür. Amma Yaşar çoxşaxəli idi. Mən ondan çox şey öyrənmişəm. Yaşarın yüksək fantaziyası vardı. Bir obrazı hazırlayırdısa ətrafdakı insanları müşahidə edə-edə, hərədən bir detal götürərək onu dolğunlaşdırırdı. Yaşar diqqətli aktyor, sənətini sevən insan idi. Çox nizam-intizamlı idi. Səhər 10-da məşq başlayacaqdısa o, saat 9-dan teatrda olurdu. Bu da sənətə sevgisindən, ətrafda olan insanlara hörmətindən irəli gəlirdi”.

S.Quliyeva Yaşar Nurini “tamaşaçının dostu” adlandırır: “Yaşar insanlarla dostluq edirdi. O, doğma aktyor idi. Üzündə sanki “şeytan tükü” vardı. Hətta inciyəndə də ona nifrət etməyi bacarmırdın. Lətifələr danışır, ətrafını elə maraqlı edirdi ki, ondan incimək olmurdu. Həyatsevər insan idi. Mən ona bənzərini görmürəm. Ondan sonra aktyorlara Yaşarın rolları paylandı, amma çoxu imtina etdi. Çünki Yaşarda olan sevimlilik o aktyorlarda yox idi. Yaşar xoşbəxt aktyor idi. Sağ olanda da sevilirdi, dünyasını dəyişəndən sonra da sevilir”.

### “YAŞARDAN ANCAQ YAXŞILIQ GÖRMÜŞƏM”

Yaşar Nuri həmişə müsahibələrində “Mən yeganə aktyoram ki, həm Akademik Teatrda, həm Opera Teatrında, həm Musiqili Komediya Teatrında oynamışam. Həm də kinoda çəkilmişəm”, - deyirdi. Bu, həqiqətən də belə idi...

Dövlət Musiqili Teatrının aktyoru Ələkbər Əliyev xatırlayır: “Yaşar Nuri mənə dərs deməsə də, diplom tamaşamıza baxmışdı. Biləndə ki, mənim təyinatımı Musiqili Teatra veriblər baş rejissor Vaqif Abbasova “Mənim tələbəmin təyinatını sizə veriblər. Onun çox gözəl səsi var və gözəl aktyordur, ondan muğayat olun”, - deyə tapşırmışdı. Yaşardan ancaq yaxşılıq görmüşəm...”

Sonra tale onları səhnədə görüşdürüb. Musiqili Teatrda eyni səhnəni bölüşüblər: “İş elə gəlirdi ki, Yaşar Musiqili Teatrda “Subaylarınızdan görəsiniz” tamaşasını hazırladı və mən həmin tamaşada baş rolda oynadım. Seyfi obrazını oynayan aktyor xəstələndiyi üçün Yaşar özü də səhnəyə çıxdı və tərəf müqabil olduq. Ondan sonra Seyfi rolunu çox aktyor oynadı, amma heç biri onu əvəz edə bilmədi. İndi də başqa aktyorlar o rolu oynayır, amma Yaşarın yerini heç kim vermir”.

Ə.Əliyev Opera Teatrında “Arşın mal alan” operettasında da Yaşar Nuri ilə tərəf müqabil olduğunu xatırlayır: “Yaşar Soltan bəyi, mən də Vəli rolunu oynayırdım”.

## ÜZÜ NƏ QƏDƏR ÇOX GÜLÜRDÜSƏ...



Mərahim Fərzəlibəyov



Səidə Quliyeva



Ələkbər Əliyev



Məsmə Aslanqızı

Foto: Firudin Salimov, Global Media Group

Yaşar Nuri səhnədə həmişə gənclərin hamisi olub. Onlara dəstək göstərib, məsləhətini əsirgəməyib.

Aktrisa Məsmə Aslanqızının yaddaşında da yaxşı insan kimi qalıb: “1995-ci ildə Elçinin “Ah, Paris, Paris” tamaşasının məşqlərinə başladıq. Bir il sonra tamaşa təhvil verildi. Mən o tamaşada Yaşar Nurinin qızı rolunu oynadım. Bu tamaşa ilə də teatra gəlmişəm. İlk debüt tamaşamda Yaşar Nuri kimi bir sənətkarla səhnəni bölüşmək mənim üçün böyük fəxr idi. Heç kəs inanmırdı, amma bu xoşbəxtlik mənə nəsib oldu. Yaşar Nuri ilə səhnəyə çıxmaq həm fəxr hissi idi, həm də o, səni heç vaxt pis vəziyyətdə qoymurdu. Gənc aktrisa idim - söz də yadımdan çıxa bilərdi, 500 nəfərlik auditoriya qarşısında özümü itirə də bilərdim. Bu qədər tamaşaçı qarşısında oynamaq 1-ci kurs tələbəsi üçün çox çətin idi. Amma Yaşar müəllim yanımda olduğu üçün çox rahat idim”. M.Aslanqızı sonradan Yaşar Nuri ilə “Mənim ərim dəlidir”, “Mənim sevimli dəlim”, “Hamlet”, “Sokratı anma gecəsi” və s. tamaşalarda da tərəf müqabil olub: “Yaşar Nuri ilə səhnəni bölüşmək adama zövq verirdi. Onunla bir neçə il çiyin-çiyinə işlədim, bircə dəfə də görmədim ki, hansısa gənc aktyorun xətrinə dəysin. Xudbinliyi yox idi, sadə və mehriban insan idi. Kənardan ona baxanda bəlkə də çoxları fikirləşirdi ki, heç bir dərdi yoxdur. Amma üzü nə qədər çox gülürdüsə, bir o qədər içində çəkirdi. O, çox həssas idi. Elə aktyorlar var ki, onlardan sonra yerləri daim görünür. Həsənağa Turabov, Kamal Xudaverdiyev, Səyavuş Aslan, İlham Əsgərov, Telman Adıgözəlov, Ramiz Novruz, Yaşar Nurinin yerini də heç kəs verməyəcək”.

Kaspi
ÜÇ ƏSRİN QƏZETİ
İDMAN
25 NOYABR ŞƏNBƏ 2023
www.kaspi.az





İtaliyalı mütəxəssisin Azərbaycan millisinin baş məşqçisi kimi fəaliyyəti başa çatdı. O, nəticə baxımından futbol ictimaiyyətinin gözləntilərini doğrulda bilmədi.

Foto: Sabir Məmmədov / Global Media Group

# DE BYAZİ DÖVRÜ BİTDİ

Canni De Byazinin Azərbaycan millisinin baş məşqçisi kimi fəaliyyəti başa çatdı. İtaliyalı mütəxəssis AFFA İcraiyyə Komitəsinin fövqəladə iclasının qərarı ilə postundan göndərildi.

67 yaşlı çalışdırıcı ölkəmizə 2020-ci ilin 30 iyulunda gəlmişdi. Mütəxəssisin yığmamıza baş məşqçi təyin edilməsi daha əvvəl Albaniya millisində əldə etdiyi uğura görə müsbət qarşılanmışdı. O, sözügedən komandanı 2016-cı ildə keçirilən Avropa çempionatının final mərhələsinə yüksəltməklə ad qazanmışdı. De Byazinin nisbətən zəif yığmada böyük uğur əldə edə bilməsi Azərbaycanda da keyfiyyətli iş ortaya qoyacağına ümid yaratmışdı. Onun ölkəmizdəki üç ildən artıq müddəti əhatə edən fəaliyyəti isə enişli-yoxuşlu oldu.

**UĞURSUZ BAŞLANĞIC**

Millətlər Liqasının 2020/21 mövsümündə yığma De Byazinin rəhbərliyi altında C Liqasının 1-ci qrupunda üçüncü yeri tutdu. Dörd xal toplayan komanda Monteneqro və Lüksemburqu özündən irəli buraxıb, yalnız Kipri qabaqlaya bildi.

De Byazinin növbəti sınağı 2022-ci il dünya çempionatının seçmə mərhələsi oldu. Beş komandalı qrupda cəmi bir xal toplaya bilən milli sonuncu yeri tutdu. Bu, yığma tarixinin DÇ seçmələrində ən pis nəticəsi idi.



## İKİNCİ - 10 AYLIQ ŞANS

Bərbad nəticəyə baxmayaraq, 2021-ci ilin sonunda De Byazi ilə müqavilə daha 10 aylıq artırıldı. Məlumatlara görə, italyan sözləşməsinin yenilənməsi müqabilində məvacibinin azaldılmasına razılaşmışdı.

Bundan sonra De Byazi millini Millətlər Liqası matçlarına çıxardı. C Liqasının 3-cü qrupunda yer alan komanda bu dəfə 10 xal topladı və ikinci yeri tutdu. Slovakiya ilə Belarusu üstələyən yığmamız Qazaxıstandan geri qaldı. Millətlər Liqasının son üç qrup matçının ardınca milli yoldaşlıq görüşlərinin də ikisində qalib gəlməyi bacardı. Ardıcıl beş qələbə yığma tarixində rekord göstərici idi.

**ÜÇÜNCÜ ŞANS**

Millətlər Liqasında nisbətən yaxşı nəticələr mütəxəssisə növbəti şansı qazandırdı. Gələn il keçiriləcək Avropa çempionatının qrup mərhələsində yenidən beş komandalı qrupa düşən yığmamız bu dəfə 4-cü yeri tuta bildi. Milli yeddi xal topladı ki, bu, 2012-ci il Avropa çempionatındakı rekord nəticənin təkrarı idi. Tsikldə İsveç üzərində Bakıda qazanılan böyük hesablı qələbə (3:0) kimi pozitiv məqam olsa da, Avstriya (1:4), İsveç (0:5) və Belçikaya ağır yenilgilər də yaşandı. Belçikalılarla son turdakı 0:5 hesablı məğlubiyyət De Byazinin yığmanın "sükançı"sı kimi sonuncu matçı oldu.

## QALMAQALLAR

De Byazi meydandankənar davranışları ilə də tez-tez gündəm oldu. Bunlar əsasən mənfi çalarlı idi. Öncə onu qeyd edək ki, italiyalı mütəxəssis sələfləri olan acnəbi çalışdırıcılardan fərqli olaraq, ölkəmizdə ən çox gözə dəyirdi. O, daim çempionat matçlarında olur, bölgələrə səfər edirdi.

Lakin qalmaqallar bu müsbət məqamla müqayisədə daha çox oldu. O, yığmanın liderlərindən olan iki futbolçu ilə münasibətləri korlamağı ilə yadda qaldı. Söhbət Qara Qarayev və Maksim Medvedevdən gedir. Sonradan məlum oldu ki, Qarayev meydanda az olmasına etiraz edib. Futbolçunun özünün dediyinə görə, baş məşqçi bunu oyunçunun boyunun alçaq olması ilə əlaqələndirib. Maraqlıdır ki, sonradan həmin mövqedə heç də ucaboy olmayan Coşqun Diniyev şans qazanıb.

Maksim Medvedev isə mütəxəssisin işini tənqid edib. Təcrübəli oyunçu bildirib ki, oyunlara hazırlıq prosesində tamam fərqli elementlər üzərində çalışsalar da, oyun günü başqa tələblər olub və bu, oyunçuları çaş-baş qoyub. Beləliklə, millinin qapıları hər iki oyunçusu üçün bağlandı.

De Byazi media ilə münasibətlərdə də yanlışlıqlara yol verməsi ilə "yadda qaldı". Ölkəsinin mətbuatına tez-tez danışan italyan yerli radioların birinə yığmadakı futbolçuları xaraktersiz və qorxaq adlandırmışdı. Həmin zaman bu, ciddi narazılıqlara səbəb oldu. Yekunda açıqlama verən De Byazi tərcümə xətasının olduğunu söylədi.

Sonuncu qalmaqal isə Belçika matçından sonra baş verdi. 0:5 hesablı məğlubiyyətin ardınca jurnalistlərin tənqidi suallarına dözməyən mütəxəssis mətbuat konfransını yarımçıq tərk etdi. Bundan öncə isə o, azərbaycanlı jurnalistləri "axmaq" adlandırdı.

Brüsseldəki mətbuat konfransı mütəxəssisin yığmanın çalışdırıcısı kimi jurnalistlərlə sonuncu görüşü oldu. İcraiyyə Komitəsinin fövqəladə iclasında cəmi bir neçə dəqiqə olan De Byazi özü də millidən getmək istədiyini deyib. O, ümumilikdə komandanı 39 oyuna çıxardı. Bunların 10-da qələbə qazanan komanda 21 dəfə uduzdu və 8 görüşü heç-heçə ilə başa vurdu.


# "Nar" ADA-da təqdimat edib

Həyata keçirdiyi davamlı və faydalı layihələri ilə cəmiyyətə töhfə verən "Nar" zəngin korporativ sosial məsuliyyət (KSM) təcrübəsini ADA Universitetinin tələbələri ilə bölüşdü. Təqdimat "Nar"ın KSM strategiyasının müəllifi, Korporativ Ünsiyyət departamentinin direktoru Əziz Axundov tərəfindən keçirildi.

Təqdimatda bizneslərin sosial məsuliyyəti mənimsəməsi, KSM strategiyasının yaradılması, müsbət fərq yaradan sosial layihələrin icrası və onların davamlılığının təmin edilməsinin əhəmiyyəti vurğulanıb.

Uğurlu model olaraq, "Nar"ın KSM strategiyasının əsas istiqamətləri - fiziki məhdudiyyətli şəxslərə dəstək, təhsilə və maarif və milli ənənələrin yaşadılması yönündə həyata keçirilən layihələr haqqında geniş məlumat verilib.

Xatırladaq ki, bir neçə ay öncə "Nar"ın "Azərbaycan işarə dilində ilk elektron lüğəti - jestdili.az" sosial layihəsi dünya üzrə ilin ən yaxşı KSM layihəsi kimi mükafata layiq görülmüşdü. Beynəlxalq İctimaiyyətlə Əlaqələr Assosiasiyası tərəfindən "Qızıl Dünya Mükafatı"na layiq görülən "Nar" bənzər mükafata 2019-cu ildə fiziki məhdudiyyətli şəxslər üçün keçirdiyi "Təlim məktəbi" sosial layihəsi ilə layiq görülmüşdü.

